QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 214 (5686) **13 noyabr** 2018-ci il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

## Prezident İlham Əliyev Bakıda Elektron Hökumətin İnkişafı Mərkəzinin inzibati binasının açılışında iştirak edib



Səh 2

“Azərbaycan mühüm idman dövlətinə çevrilib”



4

Aleksandr Lukaşenko: “Bizim qapılar Azərbaycan üçün açıqdır”



4

Slovakiyanın Baş naziri Peter Pelleqrini Azərbaycana rəsmi səfərə gəlib



4

MDR kanalı: “Almaniyadakı erməni mafiyası bütün ölkə ərazisinə səpələnib”



7

KTMT zərbəsinin ağır nəticələri...



11

Bəhruz Quliyev: “Arif Əliyev kimilər dövlətçilik, xalqçılıq kimi mühüm meyarları dərk etməyən ünsürlərdirlər”



9

11

“Avropa ölkələrində erməni mafiyası bu dövlətlərin təhlükəsizliyinə təhdiddir”



9

“Ermənistana tərs şillə güvəndiyi təşkilatdan gəldi”



10

Bakı rusiyalı turistlərin şopinqi üçün ən yaxşı şəhərdir



# Prezident İlham Əliyev Bakıda Elektron Hökumətin İnkişafı Mərkəzinin inzibati binasının açılışında iştirak edib





## Rəsmi xronika

Prezident İlham Əliyev noyabrın 12-də Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin fəaliyyətinin təmin edilməsi barədə Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycanda biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması sahəsində fərqlənən şəxslərin təltif edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycanın İsveç, eyni zamanda Norveç və Finlandiyadakı səfirini vəzifəsindən geri çağırıb.

***

Dövlət başçısının imzaladığı müvafiq Sərəncamda qeyd olunur ki, Adış Sakit oğlu Məmmədov Azərbaycan Respublikasının İsveç Krallığında, eyni zamanda Norveç Krallığında və Finlandiya Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılsın.

***

Prezident İlham Əliyev "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 1 oktyabr tarixli 1247-VQD nömrəli Qanununun tətbiqi və "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının 2013-cü il 2 iyul tarixli 714-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 28 avqust tarixli 955 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Fərmanı imzalayıb.

***

Prezident İlham Əliyev "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 1 oktyabr tarixli 1233-VKQD nömrəli Konstitusiya Qanununun tətbiqi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 12 oktyabr tarixli 1270-VQD nömrəli Qanununun tətbiqi haqqında Sərəncamı imzalayıb.

***

Prezident İlham Əliyev "Kiçik sahibkarlığa dövlət köməyi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 12 oktyabr tarixli 1268-VQD nömrəli Qanununun tətbiqi haqqında Sərəncamı imzalayıb.

***Noyabrın 12-də Bakıda Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyindəki Elektron Hökumətin İnkişafı Mərkəzinin inzibati binasının açılışı olub.***

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər.

Dövlətimizin başçısı inzibati binanın rəmzi açılışını bildirən lenti kəsdi.

Prezidentin hüquq-mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi-şöbə müdiri Fuad Ələsgərov və Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev binada yaradılan şərait barədə məlumat verdilər.

Qeyd edək ki, Nərimanov rayonu, Atatürk prospekti 89 ünvanında yerləşən beşmərtəbəli inzibati binada "Elektron Hökumətin İnkişafı Mərkəzi" publik hüquqi şəxsin fəaliyyətinin yüksək səviyyədə təşkili üçün bütün şərait yaradılıb. Burada startaplara və innovasiyalara dəstək ekosisteminin elementləri olan "İNNOLAND" İnkubasiya və Akselerasiya Mərkəzi, həmçinin İT savadlılığının artırılması məqsədilə İT Təlim-Tədris Mərkəzi də fəaliyyət göstərəcək.

"İNNOLAND" İnkubasiya və Akselerasiya Mərkəzinin fəaliyyəti ilə tanış olan Prezident İlham Əliyevə məlumat verildi ki, "İNNOLAND" Azərbaycanda, eyni zamanda, onun hüdudlarından kənarda özəl sektorun inkişaf etdirilməsi, innovasiyanın təşviqi və startap hərəkatının genişləndirilməsi üçün yaradılan inkubasiya, akselerasiya və araşdırma mərkəzidir. İNNOLAND Kovörkinq, İnkubasiya, Akselerasiya və İT Təlim-Tədris Mərkəzindən ibarətdir. Buradakı "Kovörkinq" mərkəzi startaplar, proqramçılar, innovasiyalar sahəsində tək və ya kiçik komanda ilə işləyən şəxslər üçün sərfəli və bir çox imkanları özündə birləşdirən iş yeridir.

Ardı Səh. 3

# Prezident İlham Əliyev Bakıda Elektron Hökumətin İnkişafı Mərkəzinin inzibati binasının açılışında iştirak edib

Əvvəli Səh. 2

"İNNOLAND"da fəaliyyət göstərəcək "Kovörkinq" mərkəzi həftənin 7 günü 24 saat giriş imkanına, yüksək sürətli internetə, vahid məlumat köşkünə, mentor dəstəyinə malikdir.

İT Təlim-Tədris Mərkəzi isə gənclərə proqramlaşdırma və informasiya texnologiyaları üzrə biliklərin öyrədildiyi, kodlaşdırma bacarıqlarının verildiyi məkandır. Mərkəzdə süni intellekt, robotlaşdırma və onları dəstəkləyən proqramlaşdırma dillərinə üstünlük verilir. Dərslər "bootcamp" formatında üç ay ərzində hər gün keçirilir. İnkubasiya dövründə startaplara ideyalarının formalaşdırılmasına kömək göstərilir. Bu müddətdə əvvəlcədən müəyyənləşdirilmiş istiqamətlər üzrə ildə 4 dəfə ideya müsabiqəsi elan olunur. Müvafiq meyarlara əsasən müsabiqəyə əvvəlcədən müəyyənləşdirilmiş say üzrə ideya qəbul edilir. İnkubasiya dövründə uğurla formalaşmış ideyaların ilkin versiyaları test edilməsi, prototiplərin hazırlanması üçün akselerasiya mərhələsinə keçirilir. Bu mərhələdə komandaya mütəmadi şəkildə mentor dəstəyi göstərilir. Mərkəzdə fəaliyyət göstərən startaplar İnkubasiya və Akselerasiya dövründə "İNNOLAND"ın innovasiyalar və İKT sahəsində ümumi fəaliyyətindən də yararlanacaqlar.





Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva burada innovativ layihələrlə də tanış oldular.

Bildirildi ki, "Wattbooster" qurğusu elektrik enerjisinin faydalı iş əmsalını artırır, elektromaqnit sahəsinin hesabına daha çox enerji istehsal edir. Nəticədə elektrik avadanlıqlarının enerji sərfiyyatına qənaət olunur. Hələlik bu qurğu mobil operatorların antennalarının elektrik enerjisinin sərfiyyatının azaldılması üçün nəzərdə tutulub.

"Lia" adlı spinal qurğu onurğa sütununun vəziyyətinə nəzarət edir və insanda düzgün qamət yaradır. Mikrokontroller və iki sensordan ibarət olan, çiyindən asılan "Lia" minimum 3 həftədən sonra heç bir narahatlıq hissi doğurmadan onurğa sütununu düzəltməyə kömək edir. Sensor çiyinlərin vəziyyətini müəyyən edərək duruşun düzgünlüyünü yoxlayır. İstifadəçinin duruşu səhv vəziyyətdə olduğu halda telefonuna bildiriş gəlir və qaməti düzəltmək yada salınır.

"Safee" adlı ixtira yolda təhlükəsiz şəkildə, əsasən axşam vaxtı velosiped sürmək üçün dizayn edilib. Cihaz təhlükəsizlik işarələrini velosiped sürücüsünün bel nahiyəsinə əks etdirir. Nadir cihaz istehsal olunduğu ilk gündən dünya mediasında böyük maraq doğurub. Belə ki, BBC, Mirror, Yahoo və digər media qurumlarında layihə haqqında məqalələr dərc edilib və o, bir neçə qlobal mükafata layiq görülüb. Yaxın gələcəkdə kütləvi istehsalına başlanılacaq bu cihaz üçün bir sıra ölkələrdən yüzlərlə sifariş daxil olub.

"Wetravel" isə turizm şirkətləri üçün ödəmə şəbəkəsidir. Şəbəkə istifadəçisi olan şirkətlər bir-birləri ilə pul mübadiləsini ən aşağı komissiya ilə həyata keçirə bilərlər. Otellər, hostellər, aviaşirkətlər, səyahət agentlikləri və bu qəbildən digər şirkətlər platformanın imkanlarından yararlana bilərlər. "Wetravel" istifadəçilərə səyyah məlumatının, ödənişlərin asanlıqla toplanması, ən aşağı məzənnə ilə beynəlxalq ödənişlər kimi imkan yaradır. Platforma vasitəsilə 80-dən çox ölkəyə minlərlə səfər təşkil edilib.

"Namo Media" onlayn reklam idarəetmə sistemidir. Fox, ESPN kimi böyük xəbər saytlarının reklam idarəetməsi bu sistemlə həyata keçirilir. "Namo Media" 2014-cü ildə Twitter şirkəti tərəfindən 50 milyon dollar dəyərində qiymətləndirilərək alınıb.

Bu startaplar azərbaycanlı təsisçilər tərəfindən hazırlanıb və qlobal bazarı hədəfləyir.





Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya "Elektron hökumət"in yeni inkişaf konsepsiyası barədə də ətraflı məlumat verildi.

Xatırladaq ki, dövlət strukturlarında və dövlət xidmətlərinin həyata keçirilməsində informasiya və kommunikasiya texnologiyalarından istifadə olunması, innovativ həllərin tətbiqi Azərbaycanda dövlət siyasətinin prioritetlərindən biridir. Son illərdə bu sahədə davamlı inkişaf üçün mühüm tədbirlər görülüb. Ölkə üzrə internet şəbəkəsinin qurulması, açıq hökumətin təşviqi internet istifadəçisi sayının artmasına səbəb olub, ictimai əhəmiyyət daşıyan informasiyanın açıqlığı və informasiya əldə etmə azadlığı təmin edilib. Bununla yanaşı, son illər vətəndaşlara şəffaf, operativ və resurslara qənaət etməklə xidmət göstərilməsi üçün dövlət xidmətlərini tam elektronlaşdırmaq, dövlət informasiya ehtiyatlarının analitik təhlilini aparmaq və nəticələrindən dövlət və özəl sektorun istifadəsi imkanlarını yaratmaq əsas hədəfə çevrilib. Bütün bunlara görə dövlət informasiya ehtiyatlarının və sistemlərinin formalaşdırılması, idarə olunması və qarşılıqlı inteqrasiyasının təmin edilməsi sahəsində vahid yanaşmanın və standartların tətbiqi və rəqəmsal hökumətə keçid prosesinin sürətləndirilməsi zərurəti yaranmışdı. Bu işlərin sürətlə həyata keçirilməsi üçün Prezident İlham Əliyev 2018-ci il martın 14-də "Elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçidlə bağlı tədbirlər haqqında" Fərman imzalayıb. Bu Fərmanla elektron hökumət sahəsində dövlət siyasətinin və tənzimlənməsinin həyata keçirilməsi məqsədilə Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində "Elektron Hökumətin İnkişafı Mərkəzi" publik hüquqi şəxs yaradılıb.

# "Azərbaycan mühüm idman dövlətinə çevrilib"

## *Prezident İlham Əliyev Ümumdünya Antidopinq Agentliyinin prezidentinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də Ümumdünya Antidopinq Agentliyinin prezidenti Kreyq Ridinın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Ümumdünya Antidopinq Agentliyinin Təsisçilər Şurasının və İcraiyyə Komitəsinin iclaslarının Azərbaycanda keçirilməsindən məmnunluğunu bildirdi və bu tədbirlərdə dünyanın müxtəlif ölkələrindən xeyli sayda qonağın iştirak etməsinin önəmini qeyd etdi. Prezident İlham Əliyev tədbir iştirakçılarının Azərbaycana gəlişinin ölkəmizi daha da yaxından tanıması və uğurlu əməkdaşlığın perspektivlərinin müzakirəsi üçün yaxşı imkan yaratdığını dedi.

Ölkəmizə səfərinin onun üçün çox xoş olduğunu bildirən Ümumdünya Antidopinq Agentliyinin prezidenti Kreyq Ridi Azərbaycan tərəfinin bu tədbirlərin təşkilinə böyük dəstək göstərdiyinə görə təşəkkürünü ifadə etdi. O, tədbirlərdə müxtəlif ölkələrin nümayəndələrinin və ictimai xadimlərin iştirakının əhəmiyyətini vurğuladı.



Kreyq Ridi azərbaycanlı həmkarları ilə dopinq əleyhinə mübarizə sahəsində əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi apardıqlarını deyərək, Azərbaycanda Milli Antidopinq Agentliyinin yaradılmasını dopinq əleyhinə mübarizə işində irəliyə doğru çox mühüm addım kimi dəyərləndirdi. O qeyd etdi ki, Azərbaycanın mühüm idman dövləti və güclü antidopinq təşkilatına malik olduğu nəzərə alınaraq bütün bu işlər mühüm əhəmiyyət kəsb edir.

Dövlətimizin başçısı Azərbaycan Milli Antidopinq Agentliyinin yaradılması işində Kreyq Ridinın rəhbərlik etdiyi Ümumdünya Antidopinq Agentliyinin dəstəyinə görə minnətdarlığını bildirdi. Prezident İlham Əliyev Azərbaycanda iki il bundan öncə belə bir qurumun yaradılmasının idmanın, Olimpiya hərəkatının inkişafında mühüm addım olduğunu vurğuladı və eyni zamanda, bunu idman sahəsində beynəlxalq əməkdaşlığa töhfə kimi dəyərləndirdi. Dövlətimizin başçısı ölkəmizdə Milli Antidopinq Agentliyinin beynəlxalq standartlara uyğun şəkildə fəaliyyət göstərdiyini və tam akkreditə olunduğunu dedi. Azərbaycanda idmanın inkişafına böyük önəm verildiyini deyən Prezident İlham Əliyev bildirdi ki, ölkəmizdə keçirilən mühüm beynəlxalq idman yarışları - Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları və digər tədbirlər və eləcə də keçirilməsi nəzərdə tutulan 15-ci Avropa Olimpiya Gənclər Festivalı Azərbaycanın bu sahədə əməkdaşlıq siyasətini və imkanlarını nümayiş etdirir. Dövlətimizin başçısı ölkəmizin idman sahəsində böyük nailiyyətlər əldə etməsini, o cümlədən idmançılarımızın Rio Olimpiadasında 18 medal qazanaraq medalların sayına görə 14-cü yeri tutduğunu vurğuladı. Prezident İlham Əliyev Azərbaycanın antidopinq məsələləri ilə bağlı Ümumdünya Antidopinq Agentliyi ilə bundan sonra da sıx əməkdaşlıq edəcəyinə əminliyini ifadə etdi.

# XİN: "Ümid edirik, Paşinyan anlayır ki, Paris Sülh Forumundakı çıxışı Ermənistanın xarici siyasəti ilə tamamilə ziddir"

***Ümid edirik, Ermənistanın baş naziri vəzifəsini yerinə yetirən Nikol Paşinyan anlayır ki, Paris Sülh Forumunda etdiyi çıxış Ermənistan Respublikasının xarici siyasəti ilə tamamilə ziddiyyət təşkil edir. Məhz Ermənistan beynəlxalq hüququn fundamental prinsiplərini, xüsusilə də güc tətbiq etməmək prinsipini pozaraq Azərbaycan ərazilərini işğal edib və tarixən Dağlıq Qarabağda yaşayan yüz minlərlə azərbaycanlını öz evlərində yaşamaq hüququndan məhrum edib. AZƏRTAC xəbər verir ki, bu fikirləri Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri vəzifəsini icra edən Leyla Abdullayeva KİV-ə açıqlamasında bildirib.***



Leyla Abdullayeva deyib: "Məgər öz müqəddəratını təyinetmə eyni bölgədə yaşayan digər etnik qruplara qarşı etnik təmizləmənin həyata keçirilməsi deməkdir? Məgər beynəlxalq hüququn aliliyi əraziləri işğal etmək və sonra da zor gücünə işğalın nəticələrini həll yolu kimi qəbul etdirmək deməkdir? Bu suallara elə Paşinyanın çıxışında istinad etdiyi fundamental prinsiplərin özü cavab verir. Bunun üçün BMT Nizamnaməsini və Helsinki Yekun Aktını oxumaq kifayətdir. Oxumaq istəməyənlər və ya oxuduqlarını anlamaq istəməyənlər üçün sitat gətiririk: "Dövlətlər xalqların bərabər hüquqları və öz müqəddəratını təyin etməsi hüququna hər zaman BMT Nizamnaməsinin məqsəd və prinsipləri, beynəlxalq hüququn norma və prinsipləri, o cümlədən dövlətlərin ərazi bütövlüyü prinsipinə uyğun olaraq hörmət etməlidir". Beynəlxalq forumlarda çıxış edərək sülhdən, daha yaxşı gələcəkdən danışmaq, əlbəttə, yaxşıdır. Lakin ən vacibi sadəcə bəyanatlar verməklə kifayətlənməmək, verdiyin bəyanatlara uyğun davranmaqdır, hərəkət etməkdir. Bölgənin və Ermənistanın özünün daha yaxşı gələcəyi bilavasitə Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan ərazilərinin işğalına son qoyulması və məcburi köçkünlərin öz evlərinə geri qayıtması ilə əlaqədardır".

XİN-in rəsmisi söyləyib ki, Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov Paris Sülh Forumunda iştirak edib və tədbirdən sonra Forum çərçivəsində təsis edilmiş Sülh Kitabxanasına "Qarabağ həqiqətləri" adlı kitab təqdim edib. Nazir kitabda "Dünya unutmamalıdır ki, Ermənistan silahlı qüvvələrinin işğalçı əməlləri nəticəsində Azərbaycanda olduğu kimi, bu gün hələ də dünyada xalqlar öz doğma ərazilərindən zor gücünə qovularaq etnik təmizləməyə məruz qalırlar. Ermənistanın öz silahlı qüvvələrini Azərbaycan ərazilərindən çıxarmaq, Azərbaycanın sərhədlərinə hörmət etmək, bölgədə sülh və sabitliyi bərpa etməkdən başqa yolu yoxdur" sözlərini qeyd edib.

## Aleksandr Lukaşenko: "Bizim qapılar Azərbaycan üçün açıqdır"



2017-ci ilin müvafiq dövrü ilə müqayisədə bu il ərzində Azərbaycan və Belarus arasında ticarət dövriyyəsi üç dəfə artıb. AZƏRTAC-ın BELTA-ya istinadən verdiyi məlumata görə, bu fikri Belarus Prezidenti Aleksandr Lukaşenko Azərbaycanın Belarusdakı səfiri Lətif Qəndilovla görüşündə söyləyib.

A.Lukaşenko qeyd edib ki, bu, çox yaxşı bir artımdır. Eyni zamanda, iki ölkə arasında qarşılıqlı əməkdaşlığın inkişafı üçün potensial daha böyükdür. Belarus Prezidenti, həmçinin humanitar sahədə Belarus-Azərbaycan əməkdaşlığına, xüsusən də təhsil əlaqələrinə diqqət yetirib. Bildirib ki, Belarusda 500-ə yaxın azərbaycanlı təhsil alır. "Bizim qapılar Azərbaycan üçün açıqdır",-deyə Prezident əlavə edib.

## Slovakiyanın Baş naziri Peter Pelleqrini Azərbaycana rəsmi səfərə gəlib



Slovakiya Respublikasının Baş naziri Peter Pelleqrini noyabrın 12-də Azərbaycan Respublikasına rəsmi səfərə gəlib. AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda Slovakiya Baş nazirinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Hərbi orkestrin ifasında Slovakiyanın və Azərbaycanın dövlət himnləri səslənib.

Slovakiyanın Baş naziri Peter Pelleqrinini hava limanında Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Əhmədov və digər rəsmi şəxslər qarşılayıblar.

# Dünya şöhrətli hindistanlı yoqin Heydər Əliyev Mərkəzində mühazirə ilə çıxış edib



***Noyabrın 10-da məşhur hindistanlı yoqin Sadhquru (Caqqi Vasudev) Heydər Əliyev Mərkəzində mühazirə ilə çıxış edib. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva tədbirdə iştirak edib. AZƏRTAC xəbər verir ki, Sadhqurunun izləyiciləri ilə görüşü "Mənəvi quruculuq: gümrahlığın texnologiyaları" mövzusunda olub.***

"Mənəvi quruculuq: gümrahlığın texnologiyaları" dərin və davamlı şəxsi transformasiyadan keçmək üçün qədim yoqa elmindən əldə edilən hərtərəfli bir sistemdir. Bu, insanın bədəni, ağlı, duyğuları və enerjisini pik nöqtədə, tam harmoniyada birləşdirmə üsuludur, hər hansı fiziki hazırlıq və ya yoqa haqqında bilik tələb etmir və onun sayəsində asanlıqla istənilən həyat tərzinə inteqrasiya etmək mümkündür.

Sadhqurunun mühazirəsi bədən və emosiyalara, insanın daxili enerjisinə müdrikliklə nəzarət etmək vasitələri barədə maraqlı mülahizələrlə yadda qalıb.

Hindistanlı yoqinin fikrincə, bugünkü cəmiyyət bəşər tarixində ən rahat şəraitdə yaşayan insanlardan ibarətdir. Sadhqurunun sözlərinə görə, insan bəyənmədiyi halları, əslində, özü yaradır. İnsanın düşüncələri onun həyatında müxtəlif təlatümlərə səbəb ola bilər. "İnsanlar on il əvvəl baş vermiş hadisənin iztirabını, eləcə də gələcəkdə gözlənilən hər hansı hadisənin iztirabını indi çəkir. Halbuki indiki vəziyyətdə nə on il əvvəlki, nə də gələcəkdə baş verəcək hadisə mövcud deyil", - deyən Sadhquru bu iztirabın yaddaş və hüdudsuz təxəyyül kimi mənbələrini göstərib.

"Siz sevincli olanda bu sevinc digərlərinə də sirayət edir. Siz bu zaman başqalarına pozitiv görünürsünüz. Eyni zamanda, əks halda da müvafiq vəziyyətə uyğun hal yaranır", - deyə Sadhquru vurğulayıb. Yoqin hesab edir ki, insan öz ağlının özünə zərər deyil, fayda verməsinə çalışmalıdır. İnsan dünyanı özünə deyil, özünü dünyaya uyğunlaşdırmalı və harmoniyada yaşamağı bacarmalıdır.

Sadhquru mühazirədən sonra iştirakçıların suallarını cavablandırıb, Bakıda bu auditoriya qarşısında çıxışının və insanlarla ünsiyyətinin ona çox gözəl anlar yaşatdığını bildirib.

Qeyd edək ki, Sadhqurunun Mərkəzin Auditorium zalında etdiyi çıxış çoxsaylı müraciət və istəklər nəzərə alınaraq, digər konfrans zalında da canlı yayımlanıb və burada tamaşaçılar onu böyük monitor vasitəsilə izləyiblər.

Tədbir çərçivəsində Sadhqurunun "Mənəvi quruculuq: gümrahlığın texnologiyaları" adlı kitabının imzalanma mərasimi də olub.

Hindistanın 50 nüfuzlu şəxsinin sırasında olan Sadhquru yoqin, mistik bestseller müəllifidir, özünü insanların mənəvi və fiziki rifahının yüksəlişinə həsr edib. O, bir sıra beynəlxalq forumlarda, o cümlədən BMT-nin mənzil qərargahında əsas, Dünya İqtisadi Forumunda isə mütəmadi çıxışçı olub, TED konfranslarında izləyicilərlə görüşüb. Hindistanlı yoqin Oksford, Stenford, Harvard, Uorton, Yel universitetlərində, Massaçusets Texnologiya İnstitutunda və dünyanın digər qabaqcıl ali təhsil müəssisələrində çıxış edib.









# Azərbaycançılıq ideologiyasından qaynaqlanan layihələr

***Sosial problemlərin həllinə yardımçı olmaq, xüsusi qayğıya ehtiyacı olan insanlara kömək göstərmək, bilik və bacarıqlarının aşkara çıxarılmasına, qabiliyyətlərini göstərməsinə, inkişaf etdirməsinə yardım etmək, Azərbaycan mədəniyyətinin geniş təbliği, sağlam mənəvi dəyərlərin qorunması ilə bağlı aparılan işlərə kömək etmək kimi dəyərlərin həyata keçirilməsinə Heydər Əliyev Fondun Moskva Nümayəndəliyinin gördüyü işlər, məhz azərbaycançılıq ideologiyasına söykənən faktorlardır. Heydər Əliyev Fondunun vitse-prezidenti, fondun Moskva Nümayəndəliyinin rəhbəri Leyla xanım Əliyevanın uşaq və gənclərin hərtərəfli biliklərə malik vətəndaş kimi yetişdirilməsi işinə xidməti daim diqqətdə olub. Bütün bunların əsasında maarifləndirməni genişləndirmək, dünya təcrübəsindən istifadə edərək, onun Azərbaycan milli-mənəvi dəyərləri zəminində aşkara çıxarıb tədbiqinə nail olmaq dövlətin milli maraqlarına söykənir.***











Leyla xanım Əliyevanın Moskvada gördüyü işlər milli-mənəvi dəyərlərimizin təbliğində atılan doğru yoldur. Azərbaycan Respublikasının beynəlxalq nüfuzunun artırılması ilə bağlı tədbirlərin həyata keçirilməsinə yardımçı olan nümayəndəlik Azərbaycan həqiqətlərini dünyaya çatdırılmasında bir vasitəçi, ötürücü rol oynayaraq, Ulu Öndər Heydər Əliyev ideyalarına sadiqliyini nümayiş etdirir. "Heydər Əliyev bütün həyatını öz ölkəsinə həsr etmişdir. Onun müdrikliyi və siyasi uzaqgörənliyi sayəsində bu gün Azərbaycan tərəqqi edir" - deyən Leyla xanım Əliyeva bu gün müstəqil Azərbaycanda Onun bütün həyatını həsr etdiyi işin, ideyalarının yaşadığını vurğulayıb.

### "HƏYATIMIZI NƏINKI SAĞLAM, HƏM DƏ MARAQLI VƏ RƏNGARƏNG EDƏN NƏ VARSA HAMISININ QORUNUB- SAXLANMASINA BIRGƏ TÖHFƏ VERMƏLIYIK"

Leyla xanımın layihələri sırasında gənclərin yeni qlobal ekoloji kampaniyası olan İDEA-nı, xüsusilə, qeyd etmək lazımdır. İDEA ətraf mühit kampaniyası regionda ətraf mühit məsələlərilə məşğul olan ən böyük təşkilatdır. Gənclərlə əməkdaşlığa xüsusi önəm verən kampaniyanın ətraf mühitin qorunması ilə bağlı yaradıcı yanaşması vardır. Bu kampaniya çərçivəsində artıq ilk addımlar atılıb. Belə ki, BMT İnkişaf Proqramı ilə saziş imzalanıb, gənc ekoloqlar üçün beynəlxalq düşərgələr keçirilib. İDEA müasir dövrün çağırışlarına cavab təşəbbüsüdür. Müasir dövrümüzdə ekologiya və ətraf mühitin qorunması vacib məsələlərdən olduğundan, ekoloji problemlərin nəticələri diqqətdədir. Leyla xanım Əliyevanın müsahibələrinin birində dediyi kimi, biz planetimizə görə məsuliyyət hiss etməli və bioloji müxtəlifliyin, həyatımızı nəinki sağlam, həm də maraqlı və rəngarəng edən nə varsa hamısının qorunub-saxlanmasına birgə töhfə verməliyik. Məhz bu münasibətin məntiqi olaraq, İDEA qlobal gənclik ekoloji kampaniyasına start verdi. Qeyd edək ki, İDEA kampaniyası artıq bir sıra ekoloji təşkilatlar tərəfindən dəstəklənib. İDEA xətti ilə həyata keçirilən tədbirlərdə gənclərin və tələbələrin, demək olar ki, bütün iri təşkilatları iştirak edir. Bu, "Bir planet - bir gələcək" devizini bir daha təsdiq edir. İDEA Azərbaycanda "Böyük Qafqaz beşliyi" deyilən, yox olmaq təhlükəsi ilə üzləşən beş heyvan növünü müəyyən edib. Kampaniyanın rəhbəri problem barəsində Azərbaycan və dünya ictimaiyyətini maksimum məlumatlandırmaq və yox olmaq təhlükəsi qarşısında olan növlərin qorunub-saxlanması üçün konkret layihələr həyata keçirməyi qarşıya məqsəd qoyub.

### "ƏTRAF MÜHITIN QORUNMASI VƏ DAVAMLI INKIŞAFIN TƏMIN OLUNMASI ÜÇÜN BÜTÜN DÜNYADA ƏMƏKDAŞLIĞI TƏMIN ETMƏK ÖNƏMLIDIR"

İDEA "Eko Ev" adlı layihəsi çərçivəsində isə enerji istehlakını azaldan, tullantıları utilizasiya edən və s. ekoloji amilləri nəzərə alan tədbirlər reallaşıb. Layihələrinin çərçivəsini və miqyasını genişləndirən İDEA "ASAN Xidmət" və "Təmiz Şəhər" ASC-nin birgə təşkilatçılığı ilə "Hər kağızı bir yarpağa dəyişək" müştərək layihəsini də qeyd etmək yerinə düşər. Dünyada ətraf mühitin qorunması, davamlı inkişafın təmin olunması üçün Minilliyin İnkişaf Məqsədləri qəbul edilib. Əsas məqsəd insanlara bu sahədə qərar qəbul etmək imkanları vermək, onları bu prosesə cəlb etməkdir. "Yaşıl iqtisadiyyat"ın təmin olunması ilə bağlı bütün ölkələrin üzərinə öhdəliklər düşür. "Ətraf mühitin qorunması və davamlı inkişafın təmin olunması üçün bütün dünyada əməkdaşlığı təmin etmək önəmlidir", - deyən Leyla xanım Əliyeva dünyanın müxtəlif ölkələrində yaşayan gəncləri ekoloji məsələlərin həlli istiqamətində fəal olmağa və bir-biriləri ilə əlaqələr qurmağa dəvət edib.

Paytaxımızda keçirilən Krans Montana Forumu, bu baxımdan, əhəmiyyəti ilə yadda qalıb. Forumda Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyeva müasir həyatımız üçün vacib olan ətraf mühitin qorunması sahəsində gələcəyin liderlərinin davamlı inkişafı təminində rollarını xüsusi olaraq qeyd etmişdir.

Heydər Əliyev Fondunun təşəbbüsü ilə paytaxtımızda keçirilən "Tullantıdan sənətə" Sərgisi də ətraf mühitin tullantılardan zərəsizləşdirilməsində əhəmiyyətli bir layihə oldu. Sərginin əsas məqsədi əhaliyə ətraf mühiti təmiz saxlamağın vacibliyini aşılamaq, onları lazımsız saydıqları əşyaları düşünmədən zibil qutularına atmaq vərdişlərindən çəkindirmək idi. Bu gün Bakı şəhərində tullantılardan təkrar istehsal üçün xammal kimi istifadə olunur. Həmçinin, tullantıların yandırılması nəticəsində, elektrik enerjisi əldə edilir. "Tullantıdan sənətə" Sərgisi isə tullantıların lazımsız əşyalar toplusu olmadığını, hətta onlardan sənət əsərləri yaratmağın mümkünlüyünü əyani formada nümayiş etdirdi. Göründüyü kimi, Leyla xanım Əliyeva "Biz hamımız planetimiz üçün məsuliyyət hiss etməliyik" - deməklə ətraf mühitin mühafizəsi, planetimizin üzləşdiyi ekoloji təhlükənin aradan qaldırılmasının vacibliyini daim diqqətdə saxlayır.

***Nəzakət ƏLƏDDİNQIZI***



## Milli Məclisin bir sıra deputatı milli ordumuzun 100 illiyi ilə bağlı yubiley medalı ilə təltif olunub



Noyabrın 12-də Milli Məclisdə bir sıra deputata "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalı təqdim olunub. AZƏRTAC xəbər verir ki, çıxış edən Milli Məclisin mətbuat xidmətinin rəhbəri Akif Təvəkküloğlu tədbirin əlamətdar günə - Konstitusiya Gününə təsadüf etdiyini bildirib.



A.Təvəkküloğlu diqqətə çatdırıb ki, 2018-ci il Prezident İlham Əliyevin Sərəncamı ilə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan olunub. Bu münasibətlə həm Azərbaycanda, həm də ölkəmizdən kənarda xeyli sayda tədbirlər keçirilib. Bu tədbirlər hələ də davam edir. Milli Məclisdə Azərbaycan parlamentinin 100 illiyi ilə bağlı təntənəli iclas keçirildi. Bu iclasa xarici ölkələrdən xeyli sayda qonaqlar qatıldı. İyunun 26-da Azərbaycan Silahlı Qüvvələrinin yaranmasının 100 illiyi ilə əlaqədar möhtəşəm parad keçirildi. Paradda 100-ə yaxın xarici ölkədən nümayəndələr iştirak edirdilər. Dünyanın bir çox aparıcı informasiya vasitələri bu parad barədə reportajlar hazırladılar və informasiyalar verdilər. Bu, hər birimiz üçün qürurvericidir.

Müdafiə Nazirliyinin Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi, general-mayor Rasim Əliyev Milli Məclisin deputatlarının ordu quruculuğu sahəsindəki fəaliyyətini yüksək dəyərləndirərək bildirib ki, Azərbaycan Ordusunun yaranmasının 100 illiyi ilə bağlı bir sıra tədbirlər keçirilir. Deputatlar həmin tədbirlərdə də fəal iştirak edirlər.

Tədbirin sonunda "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" yubiley medalı haqqında Əsasnaməyə müvafiq olaraq Milli Məclis sədrinin müavinləri Bahar Muradovaya və Valeh Ələsgərova, parlamentin komitə sədrləri Əli Hüseynli, Ziyad Səmədzadə, Eldar İbrahimov, Hadi Rəcəbli, Əhliman Əmiraslanov, Aqiyə Naxçıvanlı, Ülvi Quliyev, Siyavuş Novruzov, Arif Rəhimzadə, İsa Həbibbəyli, Rafael Hüseynov və Səməd Seyidova, deputatlar Aydın Mirzəzadə, Aqil Abbas, Adil Əliyev, Xanlar Fətiyev, Fərəc Quliyev, Hikmət Məmmədov, Elman Məmmədov, Zahid Oruc, Bəxtiyar Sadıqov və Hacı Salayevə respublikanın müdafiə naziri Zakir Həsənovun əmri əsasında Milli Ordumuzun yaranmasının 100 illiyi ilə bağlı təsis olunmuş yubiley medalı təqdim olunub.



## "Ölkə jurnalistikası dövlətimizin yanındadır"

"Azərbaycan mediası ilə bağlı mənfi fikir söyləyənlərin özləri heç bir uğur əldə edə bilməyənlərdir. Kimin nə deməsindən asılı olmayaraq əsas odur ki, ölkə jurnalistikası dövlətimizin yanındadır". Bu fikirləri SİA-ya açıqlamasında "Olaylar" qəzetinin baş redaktoru Yunus Oğuz deyib. O bildirib ki, gənc Azərbaycan dövlətinin qorunmasında jurnalistlərin dövlətimizin yanında olması çox mühüm məsələdir: "Jurnalistlər ictimai rəyi formalaşdırır. Mətbuat ölkəmizin yanında olmaqla yanaşı, dövlətimizin maraqlarını müdafiəsində dayanır. Aprel hadisələrində, iyun Gəncə hadisələrində jurnalistlərimiz öz fəaliyyətlərini ortaya qoyaraq Azərbaycanın maraqlarından çıxış etməklə özlərinin mövqelərini göstərmiş oldular. Əgər jurnalistlərin bu addımı kimlərinsə xoşuna gəlmirsə, o zaman burada yaşamasın". Y.Oğuz qeyd edib ki, Azərbaycanda mətbuat nümayəndələri ilə bağlı dünyada analoqu olmayan addım atılır ki, bu da jurnalistlərin mənzil şəraitinin yaxşılaşdırılmasıdır: "Sovetlər dönəmində də jurnalistlər üçün müxtəlif güzəştlər var idi. Nəqliyyat vasitələrindən pulsuz istifadə etmək, təyyarə ilə hər hansı ölkəyə uçarkən 50 faiz güzəştlərdən yararlanmaq imkanı yaradılmışdı. Bütün bunlar normaldır. Çünki, jurnalistlərin işi təhlükəlidir".

Baş redaktor vurğulayıb ki, bu gün Azərbaycan mətbuatı ilə bağlı mənfi fikir söyləyən Arif Əliyev vaxtilə Mətbuat Şurasının yaradıcılarından biri olsa da, o zaman ona səs verilmədiyi üçün hamının əleyhinə çıxış etmişdi: "Təbiidir ki, bu addımların arxasında anti-Azərbaycan dairələr, o cümlədən donor təşkilatlar dayanır. Soros bu gün Gürcüstanda, Ermənistanda etdiklərini Azərbaycanda etmək istəyir. Onlar Azərbaycanda vətəndaş müharibəsi yaratmaq istəyirlər. Soros bunun vasitəsilə öz payını almaq istəyir. Lakin bu mümkün olmayacaq. Hələ biz bu haqda fikir deyənlərin ölkəmizdə yaşamasına dözürüksə böyük şeydir. Azərbaycanda yaşayıb, ölkə əleyhinə danışanların burada yeri yoxdur".

## MDR kanalı: "Almaniyadakı erməni mafiyası bütün ölkə ərazisinə səpələnib"



Almaniyada erməni mafiyasının mövcudluğu və Ermənistanın bu ölkədəki səfiri Aşot Smbatyanın erməni cinayətkar qruplaşmalarla əlaqələrinə dair noyabrın 7-də MDR televiziyasında efirə verilməli olan "Almaniyada xaç ataları: Erməni mafiyası və qanuni oğrular" adlı sənədli filmin nümayişi Ermənistan səfirinin iddiası əsasında Berlin məhkəməsi tərəfindən müvəqqəti olaraq təxirə salınıb.

AZƏRTAC xəbər verir ki, 30 dəqiqəlik sənədli filmin nümayişi üçün nəzərdə tutulan efir vaxtında mövzuya dair təxminən 7 dəqiqəlik reportaj yayımlanıb. Həmin reportajda Almaniyada erməni mafiyasının fəaliyyəti və bununla əlaqədar hüquq-mühafizə orqanlarının araşdırmaları ilə bağlı məlumat verilir, məsələyə dair MDR televiziyasının və "Der Spiegel" jurnalının birgə jurnalist araşdırması apardığı diqqətə çatdırılır və həmin araşdırmanın həmmüəlliflərindən biri, MDR televiziyasının müxbiri Aksel Hemmerlinqlə müsahibə təqdim olunur.

Qeyd edilir ki, Almaniyada mövcud olan erməni mafiyası bütün ölkə ərazisinə səpələnib. Erməni cinayətkar qruplaşmalarına "avtoritarlar" rəhbərlik edir, onlar da öz növbəsində "qanuni oğrular"a tabe olurlar. Avropol və İnterpol təşkilatlarına istinadən, erməni "qanuni oğrular"ın sayının 670-900 arasında olduğunun ehtimal edildiyi və onların əksəriyyətinin Almaniyadan kənarda yaşadıqları diqqətə çatdırılır. Bildirilir ki, Almaniyada və Avropada mövcud olan erməni mafiyasının İtaliya mafiyası ilə işgüzar əlaqələrinə dair dəlillər mövcuddur. Məlumatda, eyni zamanda, Almaniyanın hüquq-mühafizə orqanlarının mütəşəkkil cinayətkarlıqla mübarizə aparmaq üçün texniki imkanlarının və qanunvericilik bazasının zəif olduğu qeyd edilir. Reportajda daha sonra erməni mafiyası haqqında hazırlanmış sənədli filmin efirə getməsinin efir saatından bir neçə saat əvvəl məhkəmə qərarı ilə müvəqqəti təxirə salındığı diqqətə çatdırılır və qeyd edilir ki, Ermənistan səfiri jurnalistlərin araşdırmasında öz əksini tapan məlumatların təkzib olunmasını tələb edib, bu, MDR tərəfindən təmin edilmədikdən sonra isə məhkəmə qarşısında iddia qaldırıb. İddianın araşdırılması və MDR-in məsələyə hüquqi cavab verməsi üçün vaxtın məhdud olması səbəbindən məhkəmə reportajın efirə getməsinin müvəqqəti olaraq dayandırılmasına dair qərar verib. Reportajda qeyd olunur ki, sözügedən sənədli film hüquqi məsələlərə aydınlıq gətirildikdən sonra efirə gedəcək.

Almaniyada mətbuat azadlığı üçün maneə ola biləcək iddialar,- hətta AFR hökuməti ilə bağlı olan məsələlərə dair,- bir qayda olaraq məhkəmə tərəfindən təmin edilmir. Bu baxımdan çoxları Ermənistan səfirinin qaldırdığı iddianın da tezliklə MDR televiziyasının xeyrinə həll ediləcəyi və sənədli filmin yaxın zamanlarda efirə veriləcəyi qənaətindədirlər. Bundan əlavə, Ermənistan səfirinin hüquqi addımlara əl atması ictimaiyyətin diqqətini bir qədər də bu məsələyə yönəldib və Almaniyanın bütün aparıcı KİV-ləri bu mövzunu xüsusilə mətbuat azadlığı üçün jurnalist həmrəyliyi kontekstində nəzarətə götürüblər.

## Salyanda dini radikalizmlə mübarizə ilə bağlı seminar-müşavirə keçirilir



Noyabrın 12-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Salyan Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə "Dini icmalar və gənclər: dini radikalizmlə mübarizə və birgə fəaliyyətin təşkili" mövzusunda keçirilən ikigünlük seminar-müşavirə öz işinə başlayıb. Komitədən AZƏRTAC-a bildiriblər ki, rayon hüquq-mühafizə orqanlarının rəhbərləri, dini icma sədrləri və ictimaiyyətin digər nümayəndələrinin iştirak etdiyi seminar-müşavirəni açan RİH başçısı Sevindik Hətəmov vurğulayıb ki, Prezident İlham Əliyevin rəhbərlik etdiyi müstəqil respublikamızda mövcud olan bütün dinlərin nümayəndələrinə qarşı dözümlülük və tolerantlıq nümayiş olunur. Rayon icra hakimiyyətinin başçısı deyib ki, respublikamızda vicdan azadlığının təmin edilməsi, dini icmalara fəaliyyətlərinin genişləndirilməsi məqsədilə dövlət tərəfindən mütəmadi olaraq qayğı göstərilir. Sevindik Hətəmov rayondakı dini durum barədə də məlumat verib. İH-nin başçısı, eyni zamanda, qeyd edib ki, bu cür maarifləndirmə tədbirlərinin keçirilməsi olduqca əhəmiyyətlidir. İştirakçıları 12 noyabr - Konstitusiya Günü münasibətilə təbrik edən Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı bildirib ki, respublikamızda ulu öndər Heydər Əliyevin formalaşdırdığı dövlət-din siyasətinə uyğun olaraq dini konfessiyalar arasında dözümlülük mühitinin inkişaf etdirilməsi sahəsində dönüş yaranıb. Onun sözlərinə görə, ölkədə dövlətlə dini qurumların münasibəti yeni mərhələyə qədəm qoyub. S.Salahlı deyib ki, Azərbaycanda tolerant və multikultural mühit formalaşıb və bu, bütün dünyada müasir və mütərəqqi cəmiyyət modeli kimi qəbul edilir.



Dini radikalizm və ekstremizm hallarından da danışan Dövlət Komitəsi sədrinin birinci müavini cəmiyyət üçün təhlükəli olan zərərli dini cərəyanların qarşısının alınması üçün dini maarifləndirməyə böyük ehtiyac olduğunu bildirib və bu istiqamətdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin müvafiq qurumlarla birgə tədbirlərin həyata keçirdiyini diqqətə çatdırıb. O, həmçinin dini radikalizmlə mübarizədə dini icmaları, din xadimlərini fəal olmağa çağırıb. Daha sonra çıxış edən Qafqaz Müsəlmanları İdarəsinin bölgə qazısı Hüsni Həsənov qeyd edib ki, İslam dini tarixən dilindən, irqindən və sosial mənsubiyyətindən asılı olmayaraq bütün müsəlmanları bir bayraq altında birləşdirib. İslam digər səmavi dinlərin nümayəndələrinə də insanpərvərlik prinsiplərinə zidd davranmağı qadağan edib. QMİ-nin qazısı dini radikalizmin və ekstremizmin dinimizdəki vəhdətə təhlükə olduğunu da qeyd edib.

# Niyə Arif Əliyev reket mətbuatla əməkdaşlıq edir?

*“Arif Əliyevin bu gün müsahibə verdiyi “KİV-lər” İkram Rəhimovun “sağ və sol əlləridirlər”*

***Bu, bir faktdır ki, bəzən mətbuatda özlərini təsdiq edə bilməyən və bu səbəbdən də ictimai proseslərdən kənarda qalan cızma-qaraçılar fəaliyyətlərini reket dəsti-xəttinə uyğun yazı üslubuna yönəldirlər. Aradabir mətbuatın ünvanına təhqiramiz, şər və böhtan xarakterli fikirlər də səsləndirirlər. Onlardan biri də “Media klubu” adlı qondarma qurumun üzvlərindən olan Arif Əliyevdir. Söhbət etdiyimiz müsahiblərimiz A.Əliyevin iştirakçı olduğu tədbirlərdə mətbuatın ünvanına qeyri-etik ifadələr səsləndirməsinin arxasında müəyyən sifarişçilərin dayandığını bildirdilər.***

### Mətbuat Şurasının sədr müavini Müşfiq Ələsgərli: “Mənim, İkram Rəhimovla həmkarlıq edən Arif Əliyevə deyəcək sözüm yoxdur”



- Mən Arif Əliyevin bu günlərdə danışacağını gözləyirdim. Daha doğrusu, istəyirdim ki, o danışsın. Çünki A.Əliyevin bu cəmiyyətə izahat verməyə borclu olduğu mövzular var, həm media, həm də ölkə ictimaiyyəti ondan açıqlama gözləyirdi. A.Əliyev və ətrafının son olaraq təsis etdiyi “Media klubu”nun aparıcı şəxslərindən biri, onların şəriki, tez-tez dinləməyə və məsləhətləşməyə dəvət etdikləri, birgə şəkillər paylaşdıqları “Realliq.info” saytının sahibi İkram Rəhimov Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən saxlanılıb. Haqqında araşdırma gedir. İnsanlara hədə gəlməkdə, şantaj etməkdə, media adından sui-istifadə hallarında ittiham edilir. Eyni hala görə, İkram Rəhimovu digər hüquq-mühafizə orqanları da saxlaya bilərdilər. İşə məhz DTX-nın qatışması göstərir ki, ortada hələ açıqlanmayan daha ağır hallar var. “Realliq.info”-nun sahibi oktyabrın 26-da saxlanılıb. Bu günə qədər üzərindən 17 gün keçir. Bu 17 gün ərzində A.Əliyev və ətrafındakılar bu şəxsin əməlləri və onunla hansı müstəvidə əməkdaşlıq etmələri haqqında açıqlama verməli idilər, mövqelərini aydınlatmalı idilər. Onlar ya İkram Rəhimova, ya da DTX-ya haqq qazandırmalı, mövqe açıqlamalıdırlar. Media-adından sui-istifadə edən şəxsləri təşkilatlandırmaqda məqsədlərinin nə olduğunu izah etməlidirlər. Axı İkramı cəmiyyətə “media adamı” kimi təqdim edənlər onlardırlar. A.Əliyevin bu gün müsahibə verdiyi “KİV-lər” də İkram Rəhimovun “sağ və sol əlləridirlər”. A.Əliyev niyə məhz bu kontingentlə əməkdaşlıq edir? İçi mən qarışıq, media ictimaiyyətinin A.Əliyev və ətrafından gözlədiyi açıqlamanın, onun da operativ izahat verməyə məsuliyyət daşıdığı mövzunun motivi budur. O, danışıb. Amma elə bir mövzuda danışıb ki, nə mövcud duruma aidiyyatı yoxdur, nə də reallığı əks etdirmir. Arif Əliyevi Mətbuat Şurası ilə mübahisəsinin 15 illik tarixi var. Bu 15 il ərzində o öz iradlarını dəfələrlə səsləndirib. İndi səsləndirdiyi fikirlərdə heç bir yenilik yoxdur. Bu baxımdan, ona geniş cavab verməyə lüzum yoxdur. Çünki 15 il, 10 il əvvəl dediyi bu iradlara zaman-zaman cavab alıb. İndi cavabını aldığı fikirləri yenidən səsləndirir. Ona verilən cavablara isə aydınlıq gətirmir. Məsələn, 10 il əvvəl də demişdi ki, MŞ ictimai təşkilatdır, onun sədri 2 dəfədən artıq seçilə bilməz. A.Əiyevin diqqətinə çatdırılmışdı ki, özü “Yeni Nəsil” Jurnalistlər Birliyi kimi ictimai quruma 23 ildir ki, rəhbərlik edir və bu müddət ərzində dəfələrlə, həm də fasiləsiz olaraq “sədr seçilib”. Fərqi nədir? Cavab yoxdur. Cavab yoxdursa, eyni sualı niyə yenidən ortaya atır? Yaxud deyir ki, “hakimiyyətin media siyasəti düzgün aparılmayıb, media bu günə düşüb!” . Hansı günə düşüb ki, media? Arif Əliyevin sitat gətirdiyi 90-cı illərə, lap elə 2000-ci illərin əvvəllərinə nəzər salaq. O dövrü xatırlayan hər kəs bilir ki, nə media qurumları, nə də jurnalistlər öz adları ilə çağırılmırdılar: “AXCP-nin uşaqları”, “Musavatın uşaqları”, “hökumətin uşaqları” deyə bir bölgü olduğunu xatırlamırmı A.Əliyev!? KİV-lərin ayrı-ayrı siyasi icmalara mənsub olduğunu, ayrı-ayrı qrupların siyasi-iqtisadi maraqlarının təmsilçisi olduğunu unudubmu Arif Əliyev? Nümunə göstərdiyi KİV-lərin cəmiyyətə, milli maraqlara faydası çox idi, yoxsa qrup maraqlarına? Bu bölücülüklə, bu dağıdıcılıqla hara qədər gedəcəkdi KİV-lər? Bu gün xaricdə oturub milli təəssübkeşlik göstərmək əvəzinə, kiminsə sifarişi ilə anti-milli kampaniyalar keçirən “jurnalistlər” Arif Əliyevin nümunə göstərdiyi dövrün yetişdirmələri deyillərmi? Yaşadığımız günlərdəki KİV-lərin A.Əliyevin nümunə göstərdiyi dövrün KİV-lərindən əsas fərqi odur ki, bu gün KİV-lər (söhbət əksəriyyətdən gedir, hamıdan yox) ayrı-ayrı siyasi icmaların maraqlarından yox, ictimai maraqlardan, milli maraqlardan çıxış edirlər, həm də peşəkardırlar, işlərini peşəkarcasına icra edirlər. A.Əliyev KİV-lərin milliləşməsini, icmaların boyunduruğundan çıxıb ictimailəşməsini, milli təəssübkeşlik göstərmələrini “bu günə düşmək” kimi dəyərləndirirsə, medianın bu səviyyəyə çatmasını “hakimiyyətin media siyasətinin iflası” kimi qiymətləndirirsə, deməli, onun niyyəti medianın inkişafına dəstək olmaq, ictimai maraqlara xidmət etmək deyil, fərqlidir. Məsələ ondadır ki, A.Əliyev media təmsilçisidir, bütün bunları bilir. O, 90-cı illərdən bu günə qədər aktiv media proseslərinin içində olub, inkişafın harada olduğunu, problemlərin haradan qaynaqlandığını bilir. Bildiyi halda niyə həqiqətləri demir, əksinə, diqqəti real mövzulardan yayındırır. Deməli, suyun bulandırılmasında ya şəxsi maraqları var, ya da...? Deməyə sözüm, müzakirə etməyə fikirlərim çoxdur. Arif Əliyevin son müsahibəsində irəli sürdüyü bütün tezislərin əksini isbatlaya bilərəm, həm də çox asanlıqla. Amma bütün bunlar peşəkar mövzulardır, müzakirə üçün bərabər tərəf istəyir. Fikirlərimi saxlayıram, A.Əliyevin İkram Rəhimovla bağlı verəcəyi açıqlamadan sonraya. Mənim, İkram Rəhimovla həmkarlıq edən Arif Əliyevə deyəcək sözüm yoxdur. Onun imici də, fəaliyyəti də bəllidir, MŞ tərəfindən də qiymətini alıb: adı “Qara siyahıdadır”.

### “Paralel” qəzetinin baş redaktoru Tapdıq Abbas: “Arif Əliyev AXC hakimiyyəti dövründə belə mənfi imicə malik olub”



- Arif Əliyevin özünü “aparıcı media simalarından biri kimi” beynəlxalq aləmə təqdim etməsi onun bugünkü fəaliyyəti ilə yox, əsasən, onun keçmiş fəaliyyəti ilə daha çox bağlı ola bilər. A.Əliyev AXC hakimiyyəti dövründə belə mənfi imicə malik olub. Hazırda onu tanıyan hər kəsə məlumdur ki, Arif Əliyevin aparıcı media rəhbəri kimi, sonuncu dəfə təxminən 10 il bundan əvvəl xaricdən aldığı ( bir milyon $ dollar) maliyyə yardımı hesabına bir il işıqüzü görmüş “Gün Səhər” qəzetinin baş redaktoru kimi fəaliyyəti bitib. O, son zamanlar, bildiyim qədər, əsasən, beynəlxalq media qurumlarında media üzrə “tənqidçi ekspert” kimi çıxış edir və xaricdən “ müxalif və müstəqil media”nın inkişafına ayrılan maliyyə yardımlarının tənzimlənməsi ilə məşğul olur. Arif Əliyevin ölkə mediasını tənqid etməsində, əgər səmimi tənqiddirsə, normal yanaşmaq olardı. Lakin son zamanlar A.Əliyevin ölkə mətbuatı barədə tənqidi fikirlərində daha çox qərəz, böhtan və bu kimi mənfi rəylərin yer alması aydın hiss olunur. A.Əliyevin ölkə mediası haqqında bu cür qərəzli, böhtan xarakterli fikirlərini heç şübhəsiz ki, xaricdən maliyyə yardımı ayıran mərkəzlərin tələbi ilə yerinə yetirməsini də ehtimal etmək olar.

### “Həftə İçi” qəzetinin baş redaktoru Sevinc Seyidova: “Vətəndaşlar daha sağlam, daha şəffaf KİV-lərin olmasını istəyir”



- Son günlər dövlətin media siyasətinin bəzi şəxslər tərəfindən yenidən hədəfə alınması başa düşülən deyil. Əgər bu gün Azərbaycanda fəaliyyət göstərən KİV orqanlarının əksəriyyəti dövlətçilik və milli maraqlardan çıxış edirsə, buna media sahəsində çalışan hər kəs hörmətlə yanaşmağı bacarmalıdır. Müasir Azərbaycan mediasının ötən əsrin 90-cı illərlə müqayisə edilməsi doğru deyil. Son 15 ildə jurnalistikamızın inkişaf tempinə nəzər salsaq, əldə olunmuş nəticələrlə keçmiş postsovet ölkələri arasında bir çox ilklərə imza atdığımızın şahidi olarıq. Dövlət medianın ayaqda durması, maddi-texniki bazasının gücləndirilməsi, jurnalistlərin sosial durumlarının yaxşılaşdırılması üçün öz dəstəyini hər zaman göstərib. İstər KİVDF xətti ilə çap mediasına ayrılan yardımlar, istərsə də jurnalistlər üçün təmənnasız mənzillərin inşası bugünkü Azərbaycan mediasının maddi-texniki imkanlarının genişləndirilməsi, peşəkar kadrların yetişdirilməsi kontekstində əvəzsiz rola malikdir. Maliyyə mənbələrinin sağlamlaşdırılması isə medianın ölkəmizə qarşı fəaliyyət göstərən xarici qüvvələrin əlində alətə çevrilməsinin qarşısında sədd çəkir. Artıq Azərbaycan KİV-lərinin iqtisadi baxımdan heç bir xarici qüvvə qarşısında öhdəlikləri yoxdur. Medianın başlıca vəzifəsi isə dövlətçilik və milli maraqlardan çıxış etmək, imkanları daxilində zərərli ideologiyaların cəmiyyətimizə təsir imkanlarını neytrallaşdırmaqdan ibarətdir. Mətbuat Şurasının səlahiyyətlərinin artırılması ilə bağlı çağırışlara gəldikdə isə, bu, hər zaman vurğuladığımız kimi, cəmiyyətimizin tələbidir. Vətəndaşlar daha sağlam, daha şəffaf KİV-lərin olmasını, reketlərin sıramızdan tamamilə çıxarılmasını istəyir. İstər dövlət, istərsə də mətbuat olaraq bizim başlıca vəzifəmiz isə cəmiyyətdən gələn çağırışlara və tələblərə qulaq asmaq, söz və mətbuat azadlığının təmininə zərər vermədən onları yerinə yetirməkdir.

***GÜLYANƏ***

### “Arif Əliyev milyonlarla vəsaiti mənimsəyən adamlardan biri olub”



“Arif Əliyevi hər zaman xaricdən Azərbaycana axan milyonlarla dolları mənimsəyən adamlardan biri kimi tanıyıram. Özü də bu pullar, əsasən “Soros” fondu vasitəsi ilə ölkəyə göndərilirdi. O fond ki, hər zaman dövlətlərə iğtişaş, inqilab yayıb”. Bunu SİA-ya açıqlamasında Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının (BAXCP) sədr müavini Niyaməddin Orduxanlı deyib. Onun sözlərinə görə, xalqları bu cür inqilablarla on illərlə geriyə atıb: “Ölkənin sabitliyinin pozulmasında əsas maliyyə rolunu oynayıb. Mətbuata yardım adı ilə həmin ölkələrdə öz əlaltılarına yüz minlərlə vəsait göndəriblər. Həmin fondun Azərbaycanda əlaltılarından biri də Arif Əliyev olub. Arif Əliyev guya bu pullarla Azərbaycanda mətbuatın inkişafına dəstək olubdur. Milyonlarla vəsaiti mənimsədilər, öz şəxsi vəsaitləri kimi bölüşdürdülər. Bu gün bir mətbuat orqanı göstərə bilmərsiniz ki, həmin vəsait hesabına yaşayır. Mətbuatın inkişafına tövsiyə versin. On ildən artıq Qərb donorların Azərbaycana göndərdiyi küllü miqdarda vəsaiti şəxsi mal kimi bir neçə adamın arasında bölüşdürdülər. Və bir mətbəə, bir qəzet, yayım firması qurmadılar ki, bu da Azərbaycanda kütləvi informasiya vasitəsinin inkişafına tövsiyə versin. Bu adamların əsl kimliyini artıq həmin donorlar da, Azərbaycan cəmiyyəti də bilir”.

# Vüqar Rəhimzadə: “Azərbaycanda kifayət qədər müstəqil media formalaşıb”

***“Yeni Nəsil” Jurnalistlər Birliyinin sədri Arif Əliyevin Azərbaycan mediası haqqında dedikləri absurd fikirlər sərsəmliyin bir nümunəsidir. Mən onun dedikləri ilə qətiyyən razı deyiləm. Bu onun subyektiv fikri ola bilər amma söylədikləri obyektivlikdən uzaq bir fikirdir”. Bunu SİA-ya açıqlamasında Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü “İki Sahil” qəzetinin baş redaktoru Vüqar Rəhimzadə deyib.***

Baş redaktorun sözlərinə görə, bu gün Azərbaycanda kifayət qədər müstəqil media formalaşıb: “Azərbaycan mediası kifayət qədər dövlətin dəstəyi ilə əhatə olunub. Eləcə də medianın



rolu və ictimai fikrə təsiri danılmaz bir faktdır. Ona görə də Azərbaycan mediası artıq bir model olaraq dünyaya təqdim olunur. Azərbaycanda həm elektron media qurumlarının, həm də çap mətbuatının inkişafı çox sürətlə gedir. Həmçinin texniki avadanlıqların artırılması, həm də jurnalis peşəsinin artırılması yönümdə kifayət qədər uğurlu işlər qurulub və bütün bunlar göz önündədir. Hesab edirəm ki, aparılan siyasət də çox düzgün siyasətdir. Bu onların yalnız öz şəxsi təfəkkürləri, təxəyyüləri ilə ortaya atdıqları fikirlərdir. Mən onları qətiyyətlə rədd edirəm. Azərbaycanda həqiqi mənada peşəkar jurnalistika ordusu və media orqanları formalaşıb.

Hazırda media siyasətini həyata keçirənlər KİV-lərin fəaliyyətini dövlət maraqlarının, milli mənafelərin müdafiəsinə, xalqa və dövlətə xidmətə istiqamətləndiriblər. Görünür Sorosun burdakı sözçüləri bundan narahatdırlar. Arif Əliyev kimiləri KİV-ləri Qərbdəki ayrı-ayrı qüvvələrin maraqlarına tabe etdirə və şəxsi qazanc mənbəyinə çevirə bilmədiklərinə görə narazıdırlar”.

# Bəhruz Quliyev: “Arif Əliyev kimilər dövlətçilik, xalqçılıq kimi mühüm meyarları dərk etməyən ünsürlərdirlər”

***“Azərbaycanda kifayət qədər uğurlu, tarixi, milli və maarifçilik ənənələrinə söykənən mətbuat formalaşıb və bu reallıq özündə illərin təcrübələrini qoruyub-saxlamaqla yanaşı, həm də inkişaf etməkdədir. O cümlədən, həm də dövlətçilik maraqlarını qoruyub, onu müdafiə edən mətbuatımız var ki, cəmiyyətimiz bu amili yüksək qiymətləndirir”.***

Sözügedən fikirləri SİA-ya “SƏS” qəzetinin baş redaktoru, media eksperti Bəhruz Quliyev bəzi şəxslərin, o cümlədən, Arif Əliyevin müstəqil Azərbaycan mediasına qarşı qarayaxma kampaniyası aparmaq cəhdinə münasibətini açıqlayarkən deyib.

Bəhruz Quliyevin sözlərinə görə, müstəqil və azad ölkə mediasının get-gedə daha güclü inkişaf yolunu tutması, söz və ifadə azadlığının tam şəkildə təmin edilməsi bu kimi şəxsləri nədənsə, narahat etməyə başlayıb və görünür, həmin şəxslərin işlədikləri müəyyən xarici dairələr həmin gerçəkliyin qarşısının alınması üçün onlara növbəti sifarişlərini veriblər: “Ümumiyyətlə, Arif Əliyev kimilər dövlətçilik, xalqçılıq kimi mühüm meyarları dərk etməyən, onu anlamayan ünsürlərdirlər və göründüyü kimi, on-



lar müstəqil, azad və demokratik dəyərlərə söykənən Azərbaycan mətbuatının bu yolda inkişaf etməsini istəmirlər. Çünki milli mətbuatımız bütün hallarda qeyd etdiyim meyarlara sadiq olmaqla yanaşı, həm də dövlətçilik maraqlarını müdafiə edir, edəcək də. Bu gün Azərbaycan mətbuatı elə bir tərəqqi yolundadır ki, artıq xarici ölkələr mediamızın yeni modelini yüksək şəkildə qiymətləndirməkdədirlər. Bu zaman, belə hesab etmək olar ki, kimlərsə, bunu istəmirsə, bilərəkdən dərk etmirlərsə, demək ki, Azərbaycanın dövlətçilik yolunda tutduğu uğurlu mövqeyini istəmir, onu dəstəkləmir”.

“Hesab edirəm ki, belə fərdlər bir sıra anti-Azərbaycan dairələrin, donor təşkilatların qarşısında müəyyən qarantlar, maddi gəlirlər güdən nökərləridirlər ki, zaman-zaman ortalığa çıxıb, sözün əsl mənasında ürəkbulandırıcılıqla məşğul olurlar”, deyən baş redaktor bir xatırlatmanı da edərək, artıq bunun öz sübutunu tapdığını da bildirib: “Elə də uzağa getməyərək, saxta, qondarma bir qurum - “Media Klubu” deyilən və əslində, media reketirlərinin, “baş redaktor” adı altında şantaj və böhtançılarının toplaşdığı uğursuz dərnəyin bir müddət öncəki bənzər hay-küylərini xatırlaya bilərik. Məhz həmin vaxtda da onlar bu kimi çıxışlar edərək, əslində öz iç üzlərini ifşa etmişdilər”.

“Göründüyü kimi, həmin vaxtda da sağlam düşüncəli ictimai rəy, sağlam media cameəsi onların bu qaraqışqırıqlarına ümumiyyətlə, etina göstərmədi”, deyən media eksperti əlavə edib ki, bu gerçəkliyin özü artıq tam şəkildə bu ünsürlərin “kimliklərini” ortaya qoymuş oldu: “Bu gün Soros Fondu, yaxud bənzər qərəzli təşkilatların himayəsi altında var-gəl edən bu tiplərin isə öz ağalarına göstərdikləri qulluqları elə özlərinə də qalmış olacaq. Həm Azərbaycan cəmiyyəti, həm də möhkəm tarixi təməllərə, ənənələrə söykənən media cameəmiz Arif Əliyevin timsalında çıxış edən uğursuzların yersiz, mənasız, ümumiyyətlə, faktlara, sübutlara söykənməyən boş fikirlərini ciddiyə almayaraq, davamlı inkişaf və dövlətçilik yolunu tutmaqla öz uğurlu fəaliyyətini davam etdirəcəkdir”.



RÖVŞƏN

rovsen.rasulov@mail.ru

# SOROSUN “MEDİA” UŞAQLARI

***Sirr deyil ki, milyarder Corc Soros zaman-zaman bir sıra ölkələrdə, xüsusilə post-sovet ölkələrində siyasi çaxnaşmalara rəvac verən və bu istiqamətdə bəlli xarici qüvvələrin maraqlarından çıxış edən “layihələri”ni həyata keçirməyə çalışıb və çalışmaqdadır.***

Belə ki, istər media, istər siyasi təşkilat, istərsə də QHT sektorlarına, necə deyərlər, açıq-aşkar burnunu “soxan” Soros planlarına nail ola bilmədikdə, dərhal qrantlar ayırdığı qurumlar üzərindən bəlli kampaniyalarına start verdirir. Bu baxımdan, son günlər “Yeni Nəsil” adlı “jurnalistlər birliyinin” rəhbəri qismində, eləcə də “Media Klubu” adlı saxta bir qurum vasitəsi ilə Azərbaycanın müstəqil, azad, demokratik və tarixi ənənələri qoruyub-saxlayan, inkişaf etdirən mətbuatına qarşı növbəti qarayaxmalara start verilib - bu dəfə A.Əliyev timsalında. Son bir neçə gündür, adıçəkilən fərd haqqında çoxsaylı faktlar ortaya çıxarıldı, onun nəinki jurnalist cameəsinə ləkə olması, eyni zamanda qrantyeyən olmasını da danılmaz dəlillərlə sübut edildi. Əlbəttə ki, A.Əliyev bu dəlillərin danılmaz olmasına qarşı öz “arqumentlərini” gətirir, gah “aydan arı, sudan duru”, gah da “süddən çıxmış ağ qaşıq” olduğunu nümayiş etdirməyə səy göstərir. Ancaq həqiqəti heç vaxt gizlətmək olmur, ya tez, ya da gec o özü-özlüyündə ortaya çıxır. Məhz bu baxımdan da, A.Əliyevin “arqumentlərini” gerçəklik mücəssəməsinə yazmaq qeyri-mümkündür. Misal üçün, onun PA-da mətbuat katibi işlədiyi zamanlarda çıxardığı oyunlardan tutmuş, qrantlar müqabilində açdığı və qrantlar müqabilində təsis etdiyi “Gün xəbər” qəzetindən başlayaraq, həmin qəzet vasitəsi ilə bu qrantları silməyinə qədər və s.

Halbuki, A.Əliyev hazırkı zamana qədər hansı işin “qulpundan” yapışıbsa, həmin iş ya alınmayıb, ya da öz bacarıqsızlığı üzündən iflasa uğrayıb. Artıq bu kimi adamların düşüncələrində belə bir fikir formalaşıb - uğursuzluğa məruz qalıramsa, bu, mənim günahım deyil. Halbuki, qarşılanan hər bir uğursuzluqda hətta başqalarının təsirləri olarsa belə, bu uğursuzluğun əsas günahını insan özündə axtarmalıdır. A.Əliyev isə əlbəttə ki, belə reallığı dərk edə bilmək qabiliyyətinə malik olmayan “jurnalistlərdəndir”. Daim pul-para və asan qazanc əldə etmək marağından çıxış edən A.Əliyev hətta buna görə vicdanını, əqidəsini, mənliyini və ləyaqətini sataraq, həmin qazancı qatlayıb cibinə qoymaq iqtidarında olan saxta media nümayəndəsidir. Necə ki, “Yeni Nəsil” birliyində təmsil olunan, yaxud “Media Klubu” adlı dərnəyində var-gəl edən digərləri kimi...

Belələri üçün isə nə xalq, nə dövlət, nə də başqa mühümlük təşkil edən faktorlar maraqlı deyil. Əslində, Azərbaycanın tarixi ənənələrinə malik olan mediasını qaralayanlar da onlardır və zaman öz axarı ilə bu kimi xarici təşkilat nökərlərinə öz yerlərini göstərir. Nə Soros, nə də başqa araqarışdıranlar A.Əliyev, Mehman Əliyev, Elçin Şıxlı və s. tipli “media” uşaqları vasitəsi ilə müstəqil, azad, demokratik mətbuatımıza qarşı kampaniyalarda uğur əldə edə bilməyəcəklər. Bax, bundan 100 % əmin ola bilərlər!

# “Ermənistana tərs şillə güvəndiyi təşkilatdan gəldi”

***“Ermənistan bu dəfə ağır zərbəni, tərs şilləni çox güvəndiyi təşkilat olan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından (KTMT) aldı. Bu, əslində gözlənilən idi”. Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Eldəniz Səlimov deyib.***

O bildirib ki, çünki istər Ermənistan, istərsə də əli Azərbaycan xalqının qanına bulaşmış, eyni



zamanda, bir zamanlar öz xalqının qanını tökmüş cinayətkar Xaçaturov KTMT üçün artıq əməlibaşlı başağrısı idi, onun üçün ciddi problemlər yaradırdı. Deputatın sözlərinə görə, çox yaxşı haldır ki, bunu KTMT-nin üzvü olan digər dövlətlər, onların liderləri də zamanında (bəlkə də bir qədər gec) başa düşdülər və özlərini Xaçaturov biabırçılığından qurtardılar: “Bu, həm də Azərbaycanın, KTMT-nin üzvü olmasa da, bu quruma təsirini, onun çəkisini və nüfuzunu bir daha açıqlığı ilə ortaya qoydu. Yəni, KTMT-dəki dövlətlər belə bir mövqe sərgiləməklə həm də Azərbaycanla münasibətləri daha üstün tutmuş, onunla hesablaşmış oldular”. E. Səlimov hesab edir ki, bu məsələ Ermənistanda mövcud olan qeyri-sabit durumu daha da gərginləşdirəcək: “ Ermənistan r bu uğursuzluğun şokunu hələ çox yaşayacaq. Necə ki, Ermənistan öz işğalçılıq və təzavüzkarlıq siyasətlərindən əl çəkməyib, şovinizm xəstəliyindən qurtulmayıb, onların uğursuzluqlarının davamı ard-arda gələcək. Ermənistan belə davam etsə, daha da təcrid olunmuş vəziyyətə məhkum olacaq”.



# Sahibkarlığın inkişafı məşğulluq səviyyəsinin artmasını şərtləndirir

*Qeyri-neft sektorunun inkişafı yeni iş yerlərinin açılması statistikasında müsbət dinamikanı reallaşdırır*

***Məşğulluğun artması, işsizlik səviyyəsinin getdikcə azalması iqtisadiyyatda inkişafın əsas göstəricilərindən biri hesab olunmaqla, sosial siyasətin əsas məğzini təşkil edir və hər bir dövlətin, hər bir hökumətin əsas vəzifəsi sayılır. Bu vəzifənin öhdəsindən layiqincə gəlinirsə, məşğulluq səviyyəsi getdikcə artırsa, işsizlik səviyyəsi azalırsa, deməli, dövlətin apardığı siyasət doğru siyasətdir və bu da gələcəkdə daha böyük uğurlardan xəbər verir.***

Dövlət başçısının "2019-2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası"nın təsdiq edilməsi haqqında imzaladığı Sərəncam durmadan artmaqda olan əhalinin, kəmiyyət etibarı ilə çoxalan işçi qüvvəsinin iş yerlərinə olan tələbatının ödənilməsinə hesablanıb. İmzalanan bu sərəncam sosial siyasətin əsasını təşkil edir və bu siyasətin mərkəzində vətəndaş amili dayanır. Bu isə, öz növbəsində, dövlət başçısının diqqət və qayğısının əyani sübutu, səmərəli məşğulluğu təmin etmək məqsədilə qarşıdakı 11 illik bir dövr ərzində uzunmüddətli dövlət məşğulluq siyasətinin formalaşdırılmasına töhfəsidir. Nəzərə alsaq ki, əhalinin məşğulluğunu təmin etmək məqsədilə Prezident İlham Əliyev tərəfindən 2005-ci il 26 oktyabr tarixində imzalanmış Sərəncam ilə təsdiq edilən 2006-2015-ci illər üzrə Məşğulluq Strategiyası uğurla icra olunub, deməli, bu strategiyanın da uğur qazanacağı zərrə qədər şübhə doğura bilməz. Əgər həmin dövr ərzində, yəni 2006-2015-ci illər ərzində işsizlik səviyyəsi rəsmi statistikaya əsasən 7,3%-dən 5%-dək, yoxsulluq səviyyəsi 29,3%-dən 4,9%-dək azalıbsa, eyni zamanda əhalinin gəlirləri 5,2 dəfə, minimum əmək haqqı 3,5 dəfə, orta aylıq nominal əmək haqqı 3,8 dəfə artıbsa, deməli, bu ənənəyə sadiq olaraq, növbəti 11 ildə analoji müsbət nəticələr gözləməyə dəyər.

Rəsmi statistikaya əsasən, son 15 ildə 2 milyona yaxın, daha dəqiq desək, 1,96 milyon yeni iş yerlərinin yaradıldığı heç kim üçün sirr deyil və nəzərə almaq lazımdır ki, yaradılan bu iş yerlərinin 73,3 faizi daimi iş yerləridir. Onu da nəzərə almaq lazımdır ki, 70 faizdən çoxunun regionların payına düşən bu yeni iş yerlərinin əksəriyyəti, emal sənayesi, tikinti, nəqliyyat, ticarət, xidmət sahələri olmaqla, qeyri-neft sektoruna aiddir. Bu isə, həm də onu deməyə əsas verir ki, artıq qeyri-neft sektorunun inkişafında uğurlu nəticələr əldə edilib, inkişafa nail olunub.

Sözsüz ki, əhalinin sayının artması yeni iş yerlərinin yaradılmasına tələbatı artırır. Nəzərə almaq lazımdır ki, Azərbaycan demoqrafik baxımdan inkişaf edən ölkədir. Xüsusilə, qeyd etmək yerinə düşərdi ki, doğulanların sayı ölənlərin sayını 3 dəfəyə yaxın üstələyən və əhalinin orta illik artım sürəti 1,3 faizə yaxın olan Azərbaycanın bu göstəricisi Avropa ölkələri arasında ən yüksək göstəricilərdəndir. Məhz bu göstərici fasiləsiz olaraq, yeni istehsal sahələri yaradılmasını və sahibkarlığın inkişaf etdirilməsini, məşğulluq səviyyəsinin artırılmasını labüd edir. Bir sözlə, iqtisadi islahatlara hər zaman ehtiyac duyulur və qeyri-neft sektorunun inkişafına ayrılan diqqət, məhz bu ehtiyacın ödənilməsinə xidmət edir.

Neftdən asılılığı minimuma endirmək, iqtisadiyyatın bütün sahələrini, ələlxüsus kənd təsərrüfatını inkişaf etdirmək, sahibkarlıq fəaliyyətini daha da genişləndirmək məqsədi ilə qeyri-neft sektoruna dövlət başçısı tərəfindən ayrılan diqqət və qayğı ölkə iqtisadiyyatının inkişafını şərtləndirir. Bu da, öz növbəsində, iqtisadiyyatın inkişafına zəmin yaradır və əbəs yerə deyil ki, yeni iş yerlərinin açılışı artıq ardıcıl xarakter daşıyır. Çünki ölkə başçısının uğurlu iqtisadi siyasəti sayəsində dinamik inkişaf qarşısıalınmazdır və bu istiqamətdə yeniliklər, yeni-yeni uğurlar, hər bir sahədə əldə ediləcək nailiyyətlər, məşğulluq siyasətində müvəffəqiyyətlərin ardıcıl xarakter daşıyacağı barədə optimist proqnozlar verməyə əsas yaradır.

Bir sözlə, qeyri-neft sektorunun, sənayenin, ələlxüsus, kənd təsərrüfatının inkişafı xarici bazarda Azərbaycan məhsullarının rəqabət qabiliyyətliliyində, nəticədə isə yeni iş yerlərinin açılması statistikasında müsbət dinamikanı reallaşdırır.

Daim artmaqda olan əhalinin məşğulluq məsələlərinin həll edilməsi, işsizlik probleminin aradan qaldırılması üçün iqtisadi artım daimi xarakter daşımalıdır və əgər ölkəmizin iqtisadi inkişafı, iqtisadi artımı göz qabağındadırsa, deməli, məşğulluq səviyyəsinin bundan sonra daha da yüksəlməsinə, işsizlik səviyyəsinin isə daha da aşağı düşəcəyinə zərrə qədər şübhə yeri qalmır.

***İnam HACIYEV***

## Bakı rusiyalı turistlərin şopinqi üçün ən yaxşı şəhərdir

Bakı MDB-yə üzv ölkələrin şəhərləri arasında şopinq səyahətlərinin reytinqində liderlik edir. AZƏRTAC xəbər verir ki, Rusiyanın "TurStat" Analitik Agentliyi rusiyalı turistlərin alış-verişi üçün MDB-yə üzv ölkələrin ən yaxşı şəhərlərinin reytinqini tərtib edib.



Reytinq 2018-ci ildə şopinq-turların populyarlığının təhlili nəticələrinə görə təqdim olunub. Rusiyalı turistlərin alış-verişi üçün populyar olan MDB şəhərlərinin üçlüyünə Azərbaycanın, Qazaxıstanın və Belarusun paytaxtları daxil edilib.

"TurStat"ın məlumatına görə, turistlər MDB şəhərlərinə orta hesabla 2-3 günlük səfər edir və alış-verişə 1000 dollaradək pul xərcləyirlər. Agentlik, həmçinin qeyd edir ki, cari il may ayının 1-dən 31-dək keçirilən Bakı Şopinq Festivalı (Baku Shopping Festival) əcnəbi turistlərin böyük marağına səbəb olub.

## Bəxtiyar Aslanbəyli: Ötən 21 ildə "Çıraq" platformasından 700 milyon barreldən çox neft hasil edilib



Ötən 21 ildə "Çıraq" platformasından 700 milyon barreldən çox neft hasil olunub. Bu sözləri AZƏRTAC-a "BP Azerbaijan" şirkətinin əlaqələr, xarici işlər və strategiya üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli deyib.

"1997-ci ilin noyabr ayında "Çıraq" platformasından ilk neftin əldə edilməsi günü əslində Azərbaycanın yeni neft strategiyasının uğurlarının başlanğıcının simvolik tarixidir. "Azəri-Çıraq-Günəşli" (AÇG) yatağından hasilat bu platformadan başlanıb. "Çıraq" yeni inşa olunmuş daha böyük və müasir platformalar istismara verilənə qədər, yəni 2005-ci ilədək yataqdan yeganə hasilat və ixrac mənbəyi olub. Bu gün də "Çıraq" bizim AÇG-dəki 6 hasilat platformasından biridir və hələ uzun müddət çalışacaq. Biz fəxr edirik ki, bu platforma 21 ildir ki, tam təhlükəsiz, etibarlı şəkildə fəaliyyətdədir və indiyədək 717 milyon barrel (97 milyon ton) neft hasil edib. Platformada çoxsaylı yerli mütəxəssislər çalışır, o cümlədən onun növbəli işləyən iki rəhbərindən biri məhz Azərbaycan vətəndaşıdır", - deyə Bəxtiyar Aslanbəyli əlavə edib.

## "Azəriqaz": Abonentlərin sayı 2 milyon 164 min 319-a çatıb

Azərbaycanda təbii qazla təmin olunan abonentlərin sayı 2 milyon 164 min 319-a çatıb. SOCAR-ın "Azəriqaz" İstehsalat Birliyindən (İB) AZƏRTAC-a bildirilib ki, bu ilin yanvar-oktyabr ayları ərzində İB-də əhali sektoru üzrə 70 min 468 yeni abonent qeydiyyata alınıb. Bunun da 41 min 400-ü Bakı, Abşeron və Sumqayıt, 29 min 68-i isə regionlar üzrədir. Yeni abonentlərin sayının artmasına abonent bazasının daha da genişləndirilməsi istiqamətində işlərin aparılması, yaşayış məntəqələrinin qazlaşdırılması və qaz təminatının bərpa edilməsi, həmçinin təbii qazla təmin olunmuş ərazilərin genişlənən hissələrindəki fərdi yaşayış evlərinin qazlaşdırılması təsir edib.

Bundan başqa, Bakı şəhəri, ətraf qəsəbə və kəndlərdə abonentlərin qaz təchizatının yaxşılaşdırılması məqsədilə qaz kəmərlərinin yenidən qurularaq şəbəkənin genişləndirilməsi istiqamətində görülən məqsədyönlü işlər öz müsbət nəticəsini göstərib. Aparılan işlər nəticəsində ölkə üzrə təbii qazla təmin olunan abonentlərin sayı 2 milyon 164 min 319-a çatıb.

# KTMT zərbəsinin ağır nəticələri...

## Ermənistan mətbuatı baş verən reallığı bu cür etiraf edir

***Ermənistanın KTMT-dəki mövqeyini itirməsi və hərbi alyansa üzv olan ölkələrin etimadını qazana bilməməsi, ilk növbədə, sübut edir ki, artıq işğalçı dövlət heç bir halda hərbi-siyasi və s. sahələrdə digər ölkələr üçün önəm kəsb etmir. Bu arada, həmin etiraflar Ermənistanın ictimai-siyasi dairələri tərəfindən də edilməkdədir. Respublika partiyasının sədr müavini, sabiq müdafiə naziri Vigen Sarkisyan Ermənistanın KTMT-də iflas olmaq riski yaşadığını deyib. Belə ki, adıçəkilən hərbi alyansın sonuncu sammitində Ermənistanı təmsil edəcək namizədin ətrafında ümumiyyətlə, müzakirələrin aparılmaması, eləcə də KTMT-yə baş katibliyin böyük ehtimalla Belorusa keçməsi məsələsinin daha çox real görünməsi də bu cür deməyə zəmin yaradır ki, artıq ermənilərin qatarı çoxdan gedib.***



### Vigen Sarkisyan: "Biz, ciddi problemlər qarşısında qalmalı olacağıq"

Hərbi alyansın dekabrın 6-da keçirəcəyi növbəti iclasında baş katibin seçilməsi proseduru Ermənistanın əleyhinə olarsa, onda bu ölkənin ümumiyyətlə, təşkilatda qalması məsələsi böyük suallar doğura bilər.

Belə ki, "Ermənistan KTMT-də ciddi iflas riski ərəfəsindədir", deyə Vigen Sarkisyan jurnalistlərlə söhbətində bildirib və qeyd edib ki, bu qurumda baş katiblik vəzifəsini itirməmək üçün dekabrın 6-da Sankt-Peterburqda keçiriləcək növbəti iclasda Paşinyan hökuməti hər şeyə əl atmalıdır. O, ölkəsinin KTMT-də baş katiblik postunu itirəcəyi halda, hökumətin də ağır zərbə alacağını deyib. Sarkisyan, Paşinyan hökumətinin Yuri Xaçaturova qarşı atılmış addımlarını əsas gətirərək, məhz bu amilin Ermənistanın adıçəkilən hərbi alyansdakı mövqeyinin itirilməsi səbəbinin olduğunu deyib: "Ermənistan hər zaman KTMT-nin fəal üzvü olub. Ümid edirəm ki, Paşinyanın Ermənistanın xarici siyasi vektorunu dəyişəcəyi ilə bağlı verdiyi bəyanatına riayət olunacaq. Əks təqdirdə, biz ciddi problemlər qarşısında qalmalı olacağıq".

### Aleksey Malaşenko: "Ermənistan ölkədaxili siyasi hadisələrin inkişafı səbəbindən, bu kimi beynəlxalq təşkilatdakı mühüm postu itirib"

Qeyd edək ki, Rusiya politoloqları da Ermənistanın heç də yaxşı vəziyyətdə olmadığını deyirlər. Xüsusilə, KTMT-də baş verənlərlə bağlı maraqlı proqnozlarla çıxışlar edirlər. Məsələn, politoloq Aleksey Malaşenko ermənilərin "168 jam" nəşrinə verdiyi açıqlamasında KTMT-nin Astanada keçirilən sammitində baş verənlərlə bağlı münasibətində bildirib ki, Ermənistanın arzusunun həyata keçməməsi KTMT-yə heç bir təsir göstərməyəcək. O, erməni-rus münasibətlərini əsas gətirərək, erməni tərəfinə xatırlatma da edib və bu vasitə ilə Ermənistanın KTMT-nin qanunlarına riayət etməli olduğunu bildirib.

### "Baş verənlər Ermənistanın daxili siyasətinə təsir edə bilər və ölkənin rəhbərliyi daha öncələr də bəyan etmişdi ki, KTMT-nin qayda-qanunlarına riayət olunmalıdır", rus politoloq deyib.

Malaşenko qeyd edib: "Hazırkı məqamda bu vəzifənin güzəştə gedilməsi Ermənistanda daxili vəziyyətə təsir edəcək, mümkündür ki, neqativ qiymətləndirilmələr də olsun. Belə ki, Ermənistan daxili siyasi hadisələrin inkişafı səbəbindən, bu kimi beynəlxalq təşkilatdakı mühüm postu itirib. Lakin fikirlər var ki, bundan hər hansı bir yolla yayınmaq da olardı..."

Rusiyalı politoloq Ermənistanın yeni hakimiyyətinin anti-Rusiya meyilli xarakterinə də işarə edərək xatırladıb ki, Ermənistan-Rusiya hərbi-siyasi əməkdaşlığı, müəyyən şərtlər qarşılığında silahların əldə edilməsi, iki ölkənin müdafiə nazirliklərinin əməkdaşlığı fəal olub. "Bu baxımdan, düşünürəm ki, belə bir şərait Ermənistana da lazımdır", Malaşenko deyib.

### "İrates" qəzetinin mənbəsi: "Nazarbayev və Lukaşenko Nikolun olduğu yerdə heç vaxt "mühüm" məsələlər barədə danışmırlar, ümumiyyətlə ona etibar etmirlər"

Ermənistanın "İrates" qəzeti isə yazıb ki, KTMT və Avrasiya İqtisadi İttifaqının iclaslarında "qeyri-real" müzakirələr və söhbətlər aparılmaqdadır, eləcə də onlar formal xarakter daşıyır, belə ki, bütün bunlar videokameralar və kənar izləmələr zamanı baş verir. "Həqiqi söhbət və müzakirələr üzv ölkələrin şəninə verilmiş nahar vaxtı, masa ətrafında birgə, yaxud üz-üzə aparılır", deyə adıçəkilən erməni nəşrinin KTMT-yə yaxınlığı ilə seçilən və adı anonim saxlayan mənbəsi bildirib. "Nikolu, bu cür masalara xüsusi olaraq dəvət etmirlər. KTMT-nin və Avrasiya İqtisadi İttifaqının yüksək rəhbərliyi çox yəqin, belə hesab edirlər ki, inqilabçılar yemək yemirlər, yalnız ideyalarla, "öpüşlərlə" qidalanırlar", mənbə istehzalı şəkildə deyib. SİTAT: "Həqiqətə qalanda, ona sadəcə, etibar etmirlər, bundan əlavə, Nazarbayev və Lukaşenko onun olduğu yerdə heç vaxt "mühüm" məsələlər barədə danışmırlar. Hətta Nikol Putinə və Rusiyaya nə qədər yarınmağa çalışsa belə, bütün hallarda o yaddır. Rusiyada unutmurlar ki, ötən 20 il müddətində o, hər zaman MDB, KTMT və Avrasiya İqtisadi İttifaqına qarşı çıxışlar edib".

Beləliklə, fakt budur ki, Ermənistanın mövcud vəziyyəti, həqiqətən də, çıxılmaz və gərgin haldadır. Ölkə daxilində baş verən parlament seçkiləri öncəsi ziddiyyətlər, xarici siyasət uğursuzluqları, ümumiyyətlə, hər bir olay, xüsusilə, KTMT-dəki rüsvayçılıq hər şeyi tam aydınlığı, eləcə də faktları ilə ortaya qoymaqdadır. Bu, Ermənistanın və bütövlükdə mövcud ölkə rəhbərliyi istemblişmentinin - Paşinyan "inqilabının" siyasi iflasıdır.

**Rövşən RƏSULOV**

# Zaza Vaşakmadze: "Gürcüstanda dini münasibətlərin formalaşmasında müsəlman icmasının böyük rolu olub"



Gürcüstanda dini münasibətlərin formalaşmasında ölkədəki müsəlman icmasının böyük rolu və xidmətləri olub. AZƏRTAC xəbər verir ki, bu sözləri Gürcüstanın Dini Məsələlər üzrə Dövlət Agentliyinin sədri Zaza Vaşakmadze söyləyib.

O bildirib ki, Gürcüstanda müsəlmanların sayı 400 min nəfərdən çoxdur və onlar ölkə əhalisinin təqribən 11 faizini təşkil edirlər. Müsəlmanlar ölkədə ikinci ən böyük dini icmadır. Çox yaxşı və sevindirici haldır ki, Gürcüstanda müxtəlif məshəblərə məxsus müsəlmanlar bir təşkilatda birləşiblər və bir məsciddə ibadət edirlər. Agentlik sədri bildirib ki, Gürcüstan hökuməti ölkənin müsəlman icmasına hər zaman xüsusi diqqət və qayğı göstərib bu diqqət bundan sonra da davam edəcək.

# "Ermənistanda seçkilərə qədər xaos ola bilər"



"Rusiyanın Paşinyandan xoşu gəlmədiyi açıq aydındır. Bu, KTMT-yə baş katib seçkisində də özünü göstərdi. Üstəlik Rusiya Ermənistanda müəyyən xaosun ola biləcəyi ehtimalını da nəzərdən qaçırmır. Xaos Paşinyan tərəfdarları ilə köhnə rejimin tərəfdarları arasında müəyyən qarşıdurmanın ola biləcəyi şəklində özünü biruzə verə bilər". Bu fikirləri SİA-ya açıqlamasında politoloq Qabil Hüseynli deyib.

Politoloq bildirib ki, baş verən xaos nəticəsində Paşinyanın "məxməri inqilab" adlandırdığı proses tamamilə əksinə yönələ bilər. İrəvanda Paşinyanın KTMT-də uğursuzluğunun kəskin şəkildə tənqid edildiyini deyən Q. Hüseynli söyləyib ki, o, general Xaçaturovun vaxtından əvvəl həbs etməsi, istefaya getməsindən əsas günahkar hesab olunur: " Bu baxımdan hazırda Paşinyanın reytinqində geriliyin müşahidə olunduğu şəksizdir".

Politoloq söyləyib ki, Paşinyanın rəqibləri Sarkisyan, Koçaryan, Karapetyan hazırki durumdan istifadə edərək əhali arasında onun reytinqinə zərbə vururlar. " Bu proses 9 dekabr tarixində keçiriləcək seçkilərə qədər daha da gərginləşəcək ki, bu da ölkədə pozulan ictimai siyasi sabitliyin daha da pozulmasına səbəb olacaq". Q. Hüseynli qeyd edib ki, 9 dekabr seçkilərinin İrəvandakı mer seçkiləri kimi vüsətli olacağı inandırıcı deyil: "Sarkisyan tərəfdarlarının sərçki ilə bağlı daha geniş təcrübəyə malik olduğunu nəzərə alsaq, o zaman seçkilərdə ciddi mübarizə olacağını demək mümkündür".

### "Avropa ölkələrində erməni mafiyası bu dövlətlərin təhlükəsizliyinə təhdiddir"



"Almaniyalı jurnalistlərin apardıqları araşdırmalar nəticəsində Ermənistanın Almaniyadakı Aşot Smbatyanın bu ölkədəki cinayətkar qruplaşmalarla sıx əlaqələrinin olması aşkarlanıb. Məlum olub ki, hələ səfirlikdə adi əməkdaş olduğu 2008-ci ildə Aşot Almaniyaya qeyri-qanuni miqrantların gətirilməsində fəal iştirak edib". Bu fikirləri SİA-ya açıqlamasında politoloq Ehtiram Aşırlı deyib. A.Smbatyanın İrəvan kriminal dairələri ilə sıx əlaqələri olduğunu deyən politoloq bildirib ki, Ermənistanın cinayət aləmində "qanuni oğru" kimi ad çıxardığı da məlumdur: "Araşdırmada adı hallanan şəxslərdən biri də Azərbaycanın işğal olunmuş ərazilərinə qanunsuz səfər etmiş, Bundestaqın deputatı və erməni lobbi təşkilatı olan Almaniya Ermənistan Formunun təsisçisi Albert Vaylerdir. Bu həmin vaylerdir ki, Almaniya Kansleri Angela Merkelin ölkəmizə səfəri zamanı nümayəndə heyətinin tərkibinə daxil olmağa çalışırdı. Ölkəmiz tərəfindən onun səfərinə icazə verilmədi".

E. Aşırlı söyləyib ki, hazırda həmin şəxsin adı Almaniyada həbs olunan erməni mafiyası ilə əlaqələrdə hallanır: "Düşünürəm ki, Azərbaycanın işğal olunmuş ərazilərinə qanunsuz səfər etmiş Almaniya vətəndaşlarının erməni mafiyası ilə əlaqələri həmin ölkənin təkcə mətbuatı tərəfindən deyil, həmçinin xüsusi xidmət orqanları tərəfindən də köklü surətdə araşdırılacaq. Təsadüfi deyil ki, Ermənistan mafiyası bu gün Avropanın aparıcı ölkələrində, o cümlədən Almaniyada ağır cinayət əməlləri ilə məşğul olaraq bu dövlətlərin təhlükəsizliyini təhdid edir".

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

13 noyabr 2018-ci il

# YAP Nəsimi rayon təşkilatı Dövlət Bayrağı və Konstitusiya Günü münasibətilə flaşmob keçirib

***Dünən Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatı tərəfindən 9 Noyabr Dövlət Bayrağı Günü və 12 Noyabr Konstitusiya Günü münasibətilə partiyanın Mərkəzi Qərargahı önündə flaşmob keçirib. Tədbirdə Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatının bir qrup gənc fəalları iştirak ediblər.***



YAP Nəsimi rayon təşkilatının sədri, Milli Məclisin deputatı Məlahət İbrahimqızı bildirib ki, yüz il bundan öncə Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti yaranıb: “23 ay fəaliyyət göstərən Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı təsis olunub. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra



həmin bayraq ləğv edilmişdir. Üçrəngli bayrağımız ikinci dəfə 1990-cı il noyabrın 17-də Ümummilli Lider Heydər Əliyevin sədrliyi ilə keçirilən Naxçıvan MSSR Ali Sovetinin sessiyasında qaldırılmışdır”.

Millət vəkili qeyd edib ki, 1991-ci ildə ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanın dövlət bayrağı milli suverenliyin simvolu kimi bütün vətəndaşlarımız üçün müqəddəs dövlətçilik rəmzlərindən birinə çevrilib. Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan bu bayraq xalqımızın azadlıq məfkurəsinə, milli-mənəvi dəyərlərə və ümumbəşəri ideallara sadiqliyini nümayiş etdirir. Prezident İlham Əliyevin Sərəncamı ilə Dövlət Bayrağı Gününün təsis olunması dövlətimizin başçısının tarixi irsə sahib çıxmasının bariz nümunəsidir.

Millət vəkili bildirdi ki, Azərbaycan yenidən müstəqilliyini bərpa etdikdən sonra Ulu Öndər Azərbaycan Respublikası Konstitusiyanın hazırlanması işini həyata keçirdi: “Konstitusiyamız tam demokratik şəkildə ümumxalq referendumu ilə 1995-ci il noyabrın 12-də qəbul olundu. Azərbaycan Respublikasının Konstitusiyası Ulu Öndər Heydər Əliyevin bilavasitə siyasi uzaqgörənliyi, dönməz iradəsi və gərgin əməyi nəticəsində mümkün olub. Konstitusiyamız ümumbəşəri ideyalara, ən qabaqcıl dünya təcrübəsinə əsaslanmaqla yanaşı, özündə tarixi ənənələrimizi, Azərbaycan xalqının milli-mənəvi dəyərlərini əks etdirir. Ölkəmiz demokratik dövlət quruculuğu sahəsində iqtisadiyyatın və sosial-siyasi həyatın inkişafında taleyüklü dəyişikliklərə nail olub. Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən və Azərbaycan xalqının maraqlarına xidmət edən, Əsas Qanunda əksini tapmış müddəaların reallaşması nəticəsində ölkəmiz daha da qüdrətlənərək regionun aparıcı dövlətinə çevrilib”.

Məlahət İbrahimqızı bildirib ki, bu cür aksiyaların keçirilməsində məqsəd gənc nəsli Azərbaycanın dövlətçilik tarixi ilə bağlı məlumatlandırmaq, gənclər arasında təbliğatın aparılması işinə dəstəkdir.

Tədbir YAP Nəsimi rayon təşkilatının bir qrup gənc fəalları tərəfindən Azərbaycan Dövlət Himninin səsləndirilməsi ilə yekunlaşıb.

**ZÜMRÜD**



# Bayrağıma qurban olum

*Göy rəngi - göylərin ənginliyidir,*
*Qırmızı - tarixin zənginliyidir,*
*Yaşılı - sabahın ümid rəngidir,*
*Bayrağıma qurban olum!*
*Ər yurdudur, ər kəndidir,*
*Şuşa, Laçın, Xankəndidir.*
*Qürur yeri, and yeridir,*
*Bayrağıma qurban olum!*
*O, gücümdür, qüvvətimdir,*
*Istiqlalım, qüdrətimdir!*
*Allaha əmanətimdir,-*
*Bayrağıma qurban olum!*
*Cəngi kimi havalansın,*
*Başım üstə dalğalansın,*
*100 yaşına 100 calansın!*
*Bayrağıma qurban olum!*
*Vətən üçün yaşamaq istəyirəm mən!*
*Mənim dualarım Vətən doludur,*
*“Vətən”lə başlayır arzularım da.*
*Elə yaşayım ki, ömür sürüm ki,*
*Vətənim göyərsin arzularımda!*
*Adını ucaldıb əməllərimlə,*
*Zirvəyə daşımaq istəyirəm mən.*
*Vətənçün ölmək də gözəldir, amma*
*Vətənçün yaşamaq istəyirəm mən!*

*Zəhra Əliyeva,*
*Bakı şəhər Binəqədi rayon 276 saylı tam orta məktəbin 6ç sinif şagirdi.*

# BSU-da beynəlxalq seminar öz işinə başlayıb

***Dünən Bakı Slavyan Universitetində Rus dili və Ədəbiyyatı Müəllimlərinin Beynəlxalq Assosiasiyası və universitetin birgə təşkilatçılığı ilə “Rus dili məktəb və ali təhsil müəssisələrində xarici dil kimi: dil təliminin intensivləşmə yolları” adlı beynəlxalq elmi-praktik seminar keçirilib.***




BSU-nun rektoru, professor Nurlana Əliyeva seminarı açaraq, BSU-nun keçdiyi yoldan, tədris prosesindən, hazırki şəraitdə rus dili və ədəbiyyatının tədrisi istiqamətində həyata keçirilən tədbirlərdən, universitetin beynəlxalq əlaqələrindən, slavyanşünaslığın inkişafı üzrə layihələrdən danışıb. N.Əliyeva Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyası ilə Azərbaycan arasında dostluq və əməkdaşlıq əlaqələrinin genişlənməsi istiqamətində gördüyü işlər, təhsil sahəsində birgə layihələr barədə məlumat verib. O, Rusiya Federasiyasının Prezidenti V.V.Putinin BSU-nun Fəxri doktoru olduğunu xatırladıb. BSU rektoru rus dilinin tədrisinin ölkəmizdə xüsusi ənənəsinin olduğunu, dünya ədəbiyyatının bir çox incilərinin məhz bu dil vasitəsilə Azərbaycan oxucularına təqdim olunduğunu və eyni zamanda, Azərbaycan yazıçı və şairlərinin əsərlərinin rus dili vasitəsilə dünyaya çıxdığını bildirib. Sonra rektor BSU-nun Rusiyanın 28 universiteti ilə əməkdaşlıq müqavilələrinin olduğunu, birgə konfranslar, seminarlar keçirildiyini, tələbə-müəllim mübadiləsi aparıldığını bildirib.



Tədbirdə çıxış edən Rusiya Humanitar missiyasının rəhbəri Tatyana Orlova səmimi qəbula görə və elmi-praktik seminarın keçirilməsinə şərait yaratdığına görə, BSU rəhbərliyinə minnətdarlığını bildirib. O, Azərbaycanla Rusiya arasında münasibətlərin bütün zamanlarda qarşılıqlı etimad və etibara söykəndiyini qeyd edib. T.Orlova BSU-da rus dilinə xüsusi diqqət yetirilməsinə dəfələrlə şahid olduğunu söyləmiş və tələbələrin hazırlıq səviyyəsindən razılığını qeyd etmişdir. O, bu ənənənin gələcəkdə də davam etməsinin vacibliyini vurğulayıb.

MAPRİAL-ın Baş katibi Natalya Brunova BSU-nun qapılarının elmi müzakirələrə, diskussiyalara həmişə açıq olmasının şahidi olduğunu bildirib. O, keçən il rus dilinin tədrisi məsələləri ilə bağlı Beynəlxalq konfransa BSU-nun ev sahibliyi etməsini və MAPRİAL-ın və Rusiya Təhsil Akademiyasının prezidenti akademik Lyudmila Verbitskayanın rəhbərliyi ilə nüfuzlu Rusiya nümayəndə heyətinin qatıldığı həmin tədbirdə son dərəcə səmərəli təkliflərin irəli sürüldüyünü xatırladıb. Tədbir daha sonra BSU-nun tədris işləri üzrə prorektoru, professor Telman Cəfərovun moderatorluğu ilə davam etmişdir.

Seminar noyabrın 13-də öz işinə davam edəcək.

**ZÜMRÜD**

# "Yeni Azərbaycan Partiyası zəfərlərə doğru"

*YAP Pirallahı rayon təşkilatı partiyanın yaranmasının 26-cı ildönümü münasibəti ilə "N" saylı hərbi hissədə tədbir keçirib*

***Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatının təşkilatçılığı ilə Bakı şəhərində yerləşən "N" saylı hərbi hissədə Yeni Azərbaycan Partiyasının yaranmasının 26 illiyi münasibəti ilə "Yeni Azərbaycan Partiyası zəfərlərə doğru" şüarı ilə tədbir keçirilib.***



Tədbiri giriş sözü ilə açan hərbi hissə komandirinin şəxsi heyət üzrə müavini, polkovnik-leytenant Elçin Kərəmov qonaqları və şəxsi heyəti salamlayaraq qeyd edib ki, bu il yaranmasının 100 illiyini qeyd etdiyimiz Milli Ordumuz dövlətimizin dayağı, onun ərazi bütövlüyünün təminatçısıdır.

"Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən əsası qoyulmuş, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin uğurla davam etdirdiyi hərtərəfli düşünülmüş və əsaslandırılmış ordu quruculuğu siyasəti nəticəsində bu gün Azərbaycan Ordusu regionumuzda ən qüdrətli hərbi gücə çevrilmişdir və mənfur düşmən tərəfindən işğal edilmiş torpaqlarımızı ən qısa müddətdə azad etmək iqtidarındadır", deyən Elçin Kərəmov, həmçinin, xatırladıb ki, qısamüddətli və qalibiyyətli aprel döyüşləri xalqımızın vətənpərvərlik ruhunu bir daha nümayiş etdirməklə yanaşı, Ordumuzun yüksək döyüş bacarığı və qüdrətini də əyani şəkildə sübut etdi.





Tədbirdə YAP Pirallahı rayon təşkilatının sədri Hikmət Şikarov çıxış edərək Azərbaycan dövlətçiliyinin inkişafında partiyamızın xidmətlərindən danışıb. O qeyd edib ki, 1992-ci il noyabrın 21-də Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında formalaşaraq siyasi həyata vəsiqə almış Yeni Azərbaycan Partiyası fəaliyyətdə olduğu müddətdə milli birliyin, vətəndaş həmrəyliyinin, sabitlik və tərəqqinin başlıca təminatçısı qismində çıxış edib, ümummilli ideyaları özündə ehtiva edən səmərəli addımları ilə xalqın dərin inamını qazanıb.

Rəsmi hissə başa çatdıqdan sonra tədbir tanınmış müğənni Rüfət Axundov və digər incəsənət nümayəndələrinin ifasında konsert proqramı ilə davam etdirilib. 7 yaşlı Nuray Rəhmanın vətənpərvərlik ruhunda səsləndirdiyi mahnılar hərbi hissənin əsgər və zabit heyəti tərəfindən böyük coşqu ilə qarşılanıb.

***Rövşən RƏSULOV***

# Daxili İşlər Nazirliyi sosial şəbəkə istifadəçilərinə müraciət edib



Daxili İşlər Nazirliyi (DİN) sosial şəbəkə istifadəçilərinə müraciət edib. DİN-in mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, məlumatda son günlər nazirliyin adından və loqotipindən istifadə etməklə sosial şəbəkələrdə icazəsiz və saxta səhifə, kanal, profillər yaradan, işlədən şəxslərin sayının artmaqda olduğu qeyd olunub. Diqqətə çatdırılıb ki, belə profillərin yaradılması, işlədilməsi yolverilməzdir və qanunla müəyyən edilmiş qaydada məsuliyyət yaradır. Həmin səhifə və profillərdə polisin fəaliyyətinə dair təhrif olunmuş yanlış məlumatlar yerləşdirilir, vətəndaşlar tərəfindən ünvanlanmış suallara səhv cavablar yazılır. Ona görə də sosial şəbəkə izləyicilərinə saxta səhifə və profillərdən istifadə etməmək tövsiyə olunur.

Məlumat üçün bir daha diqqətə çatdırılır ki, ictimaiyyətlə əlaqələrin daha da genişləndirilməsi, polis-vətəndaş və polis-media münasibətlərinin yaxşılaşdırılması məqsədilə Daxili İşlər Nazirliyinin sosial şəbəkələrdə yaradılmış rəsmi səhifələri artıq iki ilə yaxındır fəaliyyət göstərir. Vətəndaşlar DİN-in rəsmi www.mia.gov.az saytından "Facebook", "Instagram", "Twitter" və "YouTube" hesablarına keçid işarələrindən istifadə edərək, yaxud aşağıdakı linklər vasitəsilə həmin səhifələrə daxil ola və abunə yazılmaqla məlumatları əldə edə bilərlər: https://www.facebook.com/mia.gov.az/), (https://www.instagram.com/azerbaycan.din/), (https://www.youtube.com/channel/UCnOFln-vwFvkLMCMGyg2j-w?view_as=subscriber),və (https://twitter.com/MIAAzerbaijan).

# Tərtərdə Konstitusiya Gününə həsr olunmuş tədbir keçirilib

*"Dahi Öndər Heydər Əliyevin sərf etdiyi böyük zəhmət bu gün də öz real nəticələrini verməkdədir"*



Dünən YAP Tərtər rayon təşkilatının qərargahında YAP rayon təşkilatı və rayon icra hakimiyyətinin birgə təşkilatçılığı ilə 12 Noyabr Konstitusiya Gününə həsr olunmuş tədbir keçirilib.

Tədbiri giriş sözü ilə YAP Tərtər rayon təşkilatının sədri Ramiz Şabanov açaraq, 12 Noyabr Konstitusiya Gününə həsr olunmuş geniş məruzə ilə çıxış edib. Məruzəçi qeyd edib ki, bu gün Müstəqil Azərbaycan Respublikasının 12 noyabr 1995-ci ildə qəbul olunmuş ilk Milli Konstitusiyası ölkəmizin həyatında mühüm tarixi hadisə kimi yadda qalmışdır. Artıq 23 ildir ki, xalqımız bu günü əsas dövlət bayramlarından biri kimi təntənə ilə qeyd edir: "Bu gün ölkəmiz Ümummilli Lider Heydər Əliyevin yaradıcı əməyinin məhsulu olan Konstitusiya əsasında inkişaf edir, beynəlxalq aləmdə mövqeyini möhkəmləndirir. Azərbaycanın daha firavan və xoşbəxt gələcəyi Ulu Öndər Heydər Əliyev siyasi xətti ilə bağlıdır. Həmin xətt bu gün də möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir. Bu da deməyə əsas verir ki, biz Ümummilli Liderimizin müəyyən etdiyi yolla daha sivil, firavan bir gələcəyə doğru inamla irəliləyəcəyik".

Təşkilat sədri onu da bildirib ki, müstəqil Azərbaycan dövlətinin inkişaf etdirilməsi və gücləndirilməsində, konstitusiyamızın qəbulunda müstəsna xidmətləri olmuş Dahi Öndər Heydər Əliyevin sərf etdiyi böyük zəhmət bu gün də öz real nəticələrini verməkdədir: "Bu gün möhtərəm Prezidentimizin məqsədyönlü işləri sayəsində ölkəmizdə yaranmış əlverişli ictimai-siyasi, hüquqi və iqtisadi mühit doğma Azərbaycanımızın nurlu gələcəyinə olan inamımızı bir daha artırır".

Məruzə ətrafında rayon statistika idarəsi ərazi ilk partiya təşkilatının sədri Ədalət Məmmədov, Tərtər rayonu mərkəzi xəstəxanasının baş həkimin müavini Mətanət Hüseynzadə, Qaraağacı kənd tam orta məktəbinin direktoru Rəşad Qarayev, Tərtər Heydər Əliyev Mərkəzinin əməkdaşı Samirə Səfərova və digərləri çıxış edərək tarixə ekskursiya edərək Ulu Öndərimiz Heydər Əliyevin müəllifliyi ilə hazırlanan Konstitusiyamızın dövlətimizin demokratik imicinin möhkəmlənməsinə, xalqımızın rifah halının yaxşılaşmasına verdiyi töhfələrdən danışmışlar.

***Rəfiqə***

# Balakəndə Konstitusiya Günü münasibəti ilə dəyirmi masa keçirilib

Dünən Yeni Azərbaycan Partiyası Balakən rayon təşkilatında 12 Noyabr Konstitusiya Günü münasibəti ilə dəyirmi masa keçirilib. Dəyirmi masanı giriş sözü ilə Yeni Azərbaycan Partiyasının Balakən rayon təşkilatının sədri Azad Balayev açaraq 12 noyabrın Ulu Öndər Heydər Əliyevin memarı olduğu müasir Azərbaycanın baş qanunlarının qəbul edildiyi gün olduğunu bildirdi. Qeyd etdi ki, müstəqil dövlətin idarə olunmasında, onun dövlətçilik təməlinin möhkəmləndirilməsində konstitusiyanın rolu daimi və əbədidir.



Tədbirdə rayon təşkilatının şura üzvü Pirdas Qardaşova geniş məruzə ilə çıxış etmişdir: "Azərbaycan dövlətçiliyinin tarixində ən uğurlu Konstitusiya Dahi Öndərimiz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 1978 və 1995-ci illərdə qəbul olunmuşdur. 1978-ci il Konstitusiyasının əsasını Azərbaycan dilinin dövlət dili olaraq qəbul olunmuşdursa, 1995-ci il 12 noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul edilən Konstitusiyasında Azərbaycanın müstəqil dövlətçilik təməli təsbit olunmuşdur".

Tədbirdə çıxış edən humanitar və texniki təmayüllü liseyin tarix müəllimi Aygün Hacıyeva Konstitusiyanın mahiyyəti və onun dövlətçiliyin idarə olunması rolundan danışmışdır.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi tərəfindən keçirilən hüquq Olimpiadasının qalibi, humanitar-texniki təmayüllü liseyin şagirdi Nihat Şindiyev dəyirmi masa iştirakçıları qarşısında öz uğurlarından danışmış və Olimpiadada 100 bal toplamaqla qalib olmağını görüş iştirakçılarının nəzərinə çatdırmışdır.

Tədbirdə çıxış edən Yeni Azərbaycan Partiyası Balakən rayon təşkilatının gənclər birliyinin sədri Sarxan Hacıyev rayon gəncləri arasında keçirilən maraqlı tədbirlərdən, şagirdlər arasında təşkil olunan "Xəmsə" intellektual oyununun yarışlarda qələbəsindən danışmışdır.

***Rövşən***

# Bənzər xəyanətlər-bənzər sifətlər

## *Gültəkin Hacıbəyli ilə Rüstəm İbrahimbəyovun erməni sevgisi*

***Qoca kinorejissor Rüstəm İbrahimbəyovun ermənilərlə əlaqələri haqqında dəfələrlə yazmışıq. Hətta R.İbrahimbəyovun ermənilərlə ünsiyyəti, fəaliyyəti və onlara olan məhəbbəti haqqında reallıq artıq hər kəsə bəllidir.***

Bu gün isə erməni maraqlarının ifadəçisi olan R.İbrahimbəyova dəstək olan xəyanətkar "Milli Şura"nın "primadonnası" Gültəkin Hacıbəyli də erməniyə olan sevgisini nümayiş etdirməkdə məqsədi Azərbaycanın beynəlxalq arenadakı yüksək mövqeyinə, yerinə və roluna kölgə salmaqdır. O da sirr deyil ki, istər "Milli Şura", istər AXCP, istərsə də R.İbrahimbəyov və bu sıraya daxil olan G.Hacıbəyli xarici ölkələrdə fəaliyyət göstərən ermənipərəst anti-Azərbaycan meyilli qüvvələrə nökərçilik etməklə, maliyyə vəsaiti əldə etməyə çalışırlar.

İstər R.İbrahimbəyovun, istərsə də G.Hacıbəylinin fəaliyyətlərinin "pərdəarxası oyunlar"ı üzə çıxdıqca, onun ermənilərə sevgisi də özünü göstərir. Bu isə, təbii ki, torpağında boy atdıqları vətəninə xəyanətdən savayı bir şey deyil!

### Bənzər xəyanətin, bənzər züy tutanı

Bənzər xəyanətin bənzər züy tutanı G.Hacıbəyli də R.İbrahimbəyov kimi ermənilərə yarınmaqla ermənilərin müdafiəsinə qalxmaqla təcavüzkar Ermənistanı müdafiə etmələri nəinki xəyanətkarlıq, deyərdim ki, ən bağışlanılmaz cinayətdir. R.İbrahimbəyovun Azərbaycan dövlətinin və xalqının üzləşdiyi faciələr silsiləsindən xəbəri yoxdur. Bəlkə ona xatırlatmaq lazımdır ki, ermənilər Xocalını, Qaradağlını, Bağanis Ayrımı, Kərkicahanı, Ağdabanı yerlə yeksan ediblər.



Əslində, onların anti-Azərbaycan tədliğatlarında təəccüblü bir şey yoxdur. Çünki öz ambisiyalarının və şəxsi maraqlarının girovuna çevrilmiş, öz mövqeyi ilə anti-Azərbaycan dairələrin dağıdıcı fikir və planlarını dəstəkləyən beləlvalərindən başqa mövqe gözləmək düzgün deyil. Daha dəqiq desək, balayanların, avanesovların, yəni, ermənilərin yaxın dostunun Azərbaycan xalqına münasibəti yalnız bu cür ola bilər. Guya R.İbrahimbəyov bilmirdi ki, 1987-ci ildən başlayaraq erməni dostları bağırır ki, "Qarabağ Ermənistana birləşdirilməlidir!"?

Bu da reallıqdır ki, əgər İbrahimbəyovla Hacıbəyli istədikləri hər şeyi alsaydılar, bu gün çıxıb mətbuat səhifələrinə tökdükləri bütün zəhər-ağu və yalan-palan elə içlərində qalıb öz ruhlarını yandıracaqdı. Lakin baş verənlərin öz məntiqi var: seçkiqabağı vəziyyət hər şeyin üzə çıxması üçün sadəcə katalizator rolunu oynadı və əlverişli məqama çevrildi. Yaxşı, bəs İbrahimbəyovla Hacıbəylini radikallaşaraq ittihamçı tərəfə çevrilməyə məcbur edən motiv və amillər hansılardır? Onları buna nə vadar etdi? Hər ikisi özlərinin çoxsaylı müsahibələrində eyni sözləri dayanmadan təkrarlayırlar: "Biz vətənpərvər insanlarıq, biz öz vətənimizi sevirik..."

Bütün arqumentləri qurtaran adamlar sadəcə yalan danışmağa, özlərini şəxsi ambisiyaları barədə yox, yalnız xalq, onun rifahı barədə düşünən millət xilaskarı kimi göstərməyə başlayırlar. Son illərin siyasi burulğanları zamanı yüzlərlə belə adam görmüşük: G.Hacıbəyli, R.İbrahimbəyov...

Hacıbəylinin çıxışlarında belə özünəvurğunluq elementləri var. Əgər Hacıbəyliyə elə gəlirsə ki, özünə verdiyi qeyri-adekvat qiyməti "peşəkarcasına" şişirdə bilib, möhkəm yanılır.

Göründüyü kimi, sadaladığımız faktlara əsaslanaraq deyə bilərik ki, nə R.İbrahimbəyovun, nə də G.Hacıbəylinin heç vaxt ədalətdən danışmağa mənəvi haqqı yoxdur. Nə Azərbaycan barədə, nə də adicə insanlıq ətrafında. Çünki hər ikisinin atdığı iyrənc, mənfur addımların hər biri xəyanətkarlıq, milli satqınçılıq olmaqla yanaşı, həm də qeyri-insanidir. Bu səbəbdən, bələlərinin yeri cəmiyyət arasında ola bilməz!

***Rəfiqə HÜSEYNOVA***

---

# Ermənistan məhvə doğru sürüklənir

## *Elşən Manafov: "Paşinyan siyasət səhnəsindən getməli olacaq"*

***Bu, faktdır ki, hazırda Ermənistan olduqca ağır iqtisadi və siyasi durum içində əzilir. Ölkənin işğalçılıq siyasəti onun qonşuları ilə münasibətlərinə olduqca mənfi təsir göstərib. Məhz Azərbaycan torpaqlarını işğal etməsinin nəticəsidir ki, hazırda Ermənistan həm şərqdən, həm də qərbdən blokadaya alınıb. Yalnız İran və Gürcüstan vasitəsilə İrəvan xaricə çıxır.***

Ancaq ABŞ-ın İrana yönəlik sanksiyaların sərtləşməsi fonunda rəsmi Tehranda Ermənistandan imtina edərək, öz hayına qalıb. Bütün bunlar Ermənistanın məhvə doğru sürükləndiyini göstərir. Hakimiyyəti ələ keçirən Nikol Paşinyanın da yanlış siyasət yürütməsi, xüsusi ilə də işğal altında olan Dağlıq Qarabağla bağlı əvvəlki hərbi xuntanın səhvlərini təkrarlaması Ermənistanla bağlı proqnozların reallaşacağını bir daha təsdiq edir. Politoloq Elşən Manafov da o fikirdədir ki, Paşinyan Qarabağ məsələsində güzəştə getməsə, bu, onun siyasi karyerasının sonu olacaq: "Hər halda bu məsələyə tam aydınlıq Paşinyanın növbədənkənar seçkilər fonunda əldə edə biləcəyi qələbədən sonra gələcək. Yəni, bununla bağlı konkret fikri ancaq həmin prosesdən sonra söyləmək mümkündür. Paşinyan indi müvəqqəti olaraq baş nazir səlahiyyətlərini icra edir. Bu günlərdə Paşinyanın Dağlıq Qarabağa səfər etməsi isə, hər halda, onun seçkilərdən sonra münaqişənin həlli ilə bağlı danışıqlarda hansı mövqeni sərgiləyəcəyilə bağlı məsələ ətrafında müəyyən fikir söyləməyə əsas verir".

Politoloqun sözlərinə görə, Paşinyanın Qarabağa olan səfəri dekabrda keçirilməsi planlaşdırılan növbədənkənar seçkilərlə bağlıdır: "Bütün hallarda Paşinyan anlayır ki, "Qarabağ klanı"nın seçicilərlə işləmək, onlara təsir göstərmək, hətta baş nazir funksiyasını icra edən şəxsin tərəfdarları arasında parçalanma yaratmaq imkanları qalmaqdadır. Baxmayaraq ki, Paşinyandan başqa namizəd də yoxdur. Ancaq Paşinyan əleyhinə səs verə biləcək erməni vətəndaşlarının sayı da durmadan artmaqdadır. Çünki Paşinyan elektoratına verdiyi vədlərin əksəriyyətinin öhdəsindən hələ də gələ bilməyib. Başqa bir məsələ ki, Qərbin Qarabağ probleminin həlli ilə bağlı İrəvana təklif etdiyi məlum "yol xəritəsi" adlı geosiyasi layihə var. Paşinyanın həmin layihəyə münasibətinin necə olacağı məsələsinə isə Qərbin mövqeyi aydınlıq gətirməlidir. Paşinyan seçkilərdə qalib gəlsə və ABŞ onun legitimliyinə, habelə hakimiyyətinin təhlükəsizliyinə təminat versə, İrəvan Qərbdən gözlədiyi kredit dəstəyini ala bilsə, bu halda yeni hökumət Ermənistanın Rusiya ilə münasibətlərinə müəyyən mənada dəyişiklik gətirməyə qadir olacaq. İndinin özündə də Paşinyan iqtidarında, məhz qərbyönümlü nazirlər təmsil olunub. Bu isə Rusiyanı ciddi şəkildə düşündürməklə yanaşı, həm də narahat edir. Bu mənada, Moskva bu seçkilərdə də yenidən "Qarabağ klanı" ilə işləməyə üstünlük verəcək. Amma Serj Sarkisyanın nüfuzu kifayət qədər aşağı düşdüyündən, Robert Koçaryanın seçkilərə qatılmaq şansı daha böyükdür. Belə ki, Rusiya prezidenti Vladimir Putinin ad günündə Koçaryanı təbrik etməsi sadəcə, təbrik etmək zərurətindən irəli gəlməmişdi. Burada Rusiyanın bölgə və Ermənistanla bağlı məlum maraqları var".



E.Manafov onu da bildirdi ki, Paşinyan gerçəkdən Ermənistana olan təzyiqlərin azaldılmasını, ölkəsinin müstəqil dövlət olaraq uzun müddət yaşamasını təmin etmək istəyirsə, təbii ki, Qarabağ probleminin həllində ciddi güzəşt və kompromislərə getməlidir: "Bununla bağlı ABŞ-ın mövqeyini Donald Trampın milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Bolton da səsləndirdi. Güzəştə getməyəcəyi təqdirdə isə, Ermənistan yenə də bölgə ilə bağlı layihələrdən kənarda qalacaq, düşmən ölkənin sosial-iqtisadi problemləri daha da artacaq. Bu isə Paşinyan iqtidarının siyasət səhnəsindən getməsi ilə nəticələnəcək. Paşinyan bütün bunları götür-qoy edərək konkret qərar çıxarmalıdır".

***GÜLYANƏ***

---



**Təhmasib Novruzov**

# Dilimizin Böyük dayağı

***Türk dilləri ailəsinin tərkib hissəsi olan Azərbaycan dili dünyanın ən gözəl, ən musiqili, ən ahəngdar və başlıcası digər türk dilləri kimi ən qədim dillərindəndir. Səmimiyyətimlə deyirəm ki, bu, mənim millətçilik düşüncəmin məhsulu deyil. Tarixi yazılar, mənbələr, bu dildə yaranan qalaq-qalaq poeziya və nəsr nümunələri bizə haqq verir deyək ki, min illər boyu formalaşan, inkişaf edən bu dil min illər sonra da yaşamağa və bu dildə danışan milyonları bir millət olaraq yaşatmağa qadirdir.***

Mən millətimi sevirəm və bu millətin övladı olmağımla fəxr edirəm. Ola bilsin ki, millətimə olan sevgim bəzi məqamlarda fikirlərimi millətçilik səviyyəsində ifadə etməyə sövq edir. Qoy olsun, burda qəbahət yoxdur. Hansısa mütəfəkkirin sözüdür, deyib ki, milli olmayan, bəşəri də ola bilməz. Yəni o mütəfəkkirin sözündən çıxan məna budur ki, bəşəriliyin, siyasi dillə desək beynəlmiləlçiliyin yolu millətçilikdən keçir. Odur ki, özünü bəşəri hesab edən kəslər dönüb keçmişlərinə nəzər salsınlar, görsünlər millətçilikdən keçib gəliblər bəşəriliyə, yoxsa elə anadan bəşəri doğulublar? Bunu anlamaları üçün birinci növbədə mənsub olduğu millətin dilində necə danışdıqlarının fərqində olmalıdırlar. Bu gün hansı televiziya aparıcısını dindirsən deyəcək ki, mən millətimi çox sevirəm. Amma unudur ki, çıxıb televiziyada ana dilini şilküt etmək bu millətə ən böyük xəyanətdir. Əlbəttə, mən bütün aparıcıları nəzərdə tutmuram. Bizim efirlərimizdə bu gün Aydın Qaradağlı, Rafiq Hüseynov, Nəcibə Məlikova, Natəvan Hacıyeva, Ofelya Sənani kimi müqtədir aparıcılarımızın yolunu müvəffəqiyyətlə davam etdirən televiziya və radio aparıcılarımız var və yəqin ki, həmişə də olacaq. Amma etiraf edək ki, dilimizi korlayakorlaya efirlərdən düşməyən, gənclərimizin dilinin formalaşmasında zərərli rol oynayan aparıcılarımız var ki, mən onların bu millətin övladları olduqlarına şübhə edirəm, olsalar belə milləti, milli dəyərləri sevdiklərinə birmənalı olaraq inanmıram. Əgər onların millətinə az da olsa sevgiləri olsaydı, bu peşədən əl çəkib, yerlərini ana dilində gözəl nitqə sahib gənclərə verərdilər. Anlayardılar ki, çağırılmamış qonaq kimi hər gün, hər bir evə təşrif buyuran televiziya kanallarında dilimizə zərər vuran nitqləri ilə milyonlarla gəncin nitqinə və deməli, milli varlığımıza zərbə vururlar. Eyni sözləri reklam bazarında dilimizin durumu haqqında da demək olar. Son illər istehsal olunan film və teleseriallarin dili isə dözülməzdir. Saat yarımlıq bir filmdə üç yüzə qədər, hər biri otuz dəqiqəlik teleseriallın üç bölümündə iki yüzdən çox əcnəbi sözün işlənməsi, təkcə bu filmləri istehsal edənlərin deyil, onların nümayişinə şərait yaradanların da milli ruhunu şübhə altında qoyur. Nəhayət, anadan olan kimi övladına əcnəbi dilli dayə axtaran, əcnəbi dilli bağçaya, məktəbə qoymaq üçün Bakını ələk-vələk edənlərin də millətini sevdikləri haqqında söylədikləri cəfəngiyyatdan başqa bir şey deyil. Amma şükür edəcəyimiz bir mühüm fakt var ki, onun hesabına dilimiz də, deməli millətimiz də yaşayacaq. Bu da müstəqil Azərbaycan dövlətinin dilimizə, onun saflığına və inkişafına verdiyi dəyərdir. Müstəqil Azərbaycana rəhbərlik etdiyi on beş il ərzində ana dilimizin saflığı və inkişafı ilə bağlı üç Sərəncam, bir Dövlət Proqramı və nəhayət, bütün əyər-əskikliklərin aradan qaldırılması yollarını özündə ehtiva edən sonuncu Fərman! Ana dilinin Böyük dayağı olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nə qədər gərgin şəraitdə çalışdığının, fenomenal fəaliyyətinin hər kəs şahididir. Bütün sahələrdə hər bir vətəndaş üçün nümunə olan ölkə başçısının bu sahəni də öz nəzarətinə götürməsi hesab edirəm ki, dilimizin saflığına və inkişafına zərər vuran və bələlərinə şərait yaradan hər kəs üçün utancverici faktdır. Kaş ki, bu utanc hissi həmin zümrələrdə gerçəkdən baş qaldıra və dilimizin Böyük dayağının imzaladığı bu Fərmandan sonra özlərində güc tapıb gerçək milliliyin ən böyük amili olan ana dilinə münasibətdə məsuliyyətləri hiss edəydilər.

# Qərbdə və MDB ölkələrində insan hüquqları üzrə müvəkkil institutu

***Böyük Britaniyada parlament ombudsmanı-inzibati məsələlər üzrə Parlament Komissarı haqqında qanun 22 mart 1967-ci ildə qəbul olunmuşdur. Qanuna görə, Parlament Komissarı vəzifəsinə Kraliça imtiyaz vərəqəsi ilə istənilən şəxsi təyin edə bilər. Həmin şəxs bu vəzifəni davranışı qanundan kənara çıxmayanadək yerinə yetirəcəkdir. Vəzifəsindən də Kraliça tərəfindən öz xahişi ilə və ya parlamentin tələbi ilə və 65 yaşı tamam olan ilin sonunda geri çağırıla bilər. Qanunda (maddənin 3a bəndi) belə bir məsələ də qeyd olunur ki, əgər Komissar vəzifəsini tutan şəxs səhhəti ilə ələqədar;***

a) vəzifəsi ilə bağlı öhdəlikləri yerinə yetirə bilmirsə;

b) vəzifədən azad edilməsi haqqında müraciət edərsə, onda Kraliça həzrətləri elan edə bilər ki, o, Komissar vəzifəsindən azad edilmişdir. Qanunla Komissara sayı və səlahiyyətləri Maliyyə nazirliyi tərəfindən təsdiq edilən məmurları təyin etmək hüququ verilir. Komissarın hər bir funksiyasını onun tərəfindən səlahiyyətləndirilmiş istənilən məmur və ya həm də məmur tərəfindən səlahiyyətləndirilmiş istənilən şəxs yerinə yetirə bilər.

İngiltərədə parlament ombudsmanı institutunu, məsələn, Skandinaviya və eləcə də, Azərbaycan modelindən fərqləndirən xüsusiyyət ondan ibarətdir ki, burada Müvəkkil birbaşa vətəndaşlarla ünsiyyətdə olmur, çünki vətəndaşlar ona yalnız öz deputatları vasitəsilə müraciət edə bilərlər. Beləliklə də, Müvəkkil dolayı olaraq vətəndaşların nümayəndəsi və onlarla icra hakimiyyəti arasında yaranmış münaqişələrin həll edilməsində parlamentarilərə köməklik göstərən orqan kimi çıxış edir. Bununla əlaqədar, parlament Müvəkkili haqqında qanunda konkret göstərilir ki, söhbət heç də parlamentin mahiyyəti və onun üzvlərinin rolunu aşağı salan orqanın yaradılmasından deyil, parlamentariyaların vətəndaşların icra hakimiyyəti orqanların və onların vəzifəli şəxslərinin sui-istifadələrindən və özbaşınalıqlarından müdafiəsi üçün ən yaxşı vasitələrlə təmin olunmasından gedir.

Rusiya Federasiyasında İnsan hüquqları üzrə Müvəkkil haqqında Federal Konstitusiya Qanunu 25 dekabr 1996-cı il tarixdə qəbul edilmişdir. Qanuna görə, Müvəkkil vəzifəsinə Rusiya Federasiyasının vətəndaşı olan, yaşı 35-dən az olmayan, insan və vətəndaş hüquq və azadlıqları sahəsi üzrə biliyə, onların müdafiəsi üzrə təcrübəyə malik olan şəxs təyin edilir. Həmin vəzifəyə namizədlər haqqında təklif Dövlət Dumasına Rusiya Federasiyasının Prezidenti, Federal yığıncağı, Federasiya Şurası, Dövlət Dumasının deputatları və Dumadakı deputat birlikləri tərəfindən irəli sürülə bilər. Müvəkkil vəzifəyə Dövlət Duması tərəfindən gizli səsvermə ilə Dövlət Duması deputatlarının ümumi sayının əksər səsini toplamaqla təyin və azad edilir. Müvəkkil Dövlət Dumasının deputatı, Federasiya Şurasının üzvü və ya Rusiya Federasiyası subyektinin qanunverici (səlahiyyətli) orqanının deputatı ola bilməz, dövlət xidmətində ola bilməz, müəllimlik, elmi yaxud digər yaradıcı fəaliyyət istisna olmaqla digər haqqı ödənilən və ya ödənilməyən fəaliyyətlə məşğul ola bilməz, siyasi partiyanın və siyasi məqsədlər güdən digər ictimai birliyin üzvü ola bilməz (maddə II).

Qanunda İnsan hüquqları üzrə Müvəkkilin vəzifəyə təyin olunması və həmin vəzifədən azad edilməsi qaydaları ilə yanaşı, onun səlahiyyətləri, fəaliyyətinin təşkilatı formaları və şərtləri müəyyən edilmişdir. Belə ki, Müvəkkil Rusiya Federasiyası vətəndaşlarının və bu ölkə ərazisində olan əcnəbi vətəndaşların və vətəndaşlığı olmayan şəxslərin şikayətlərinə baxır. Lakin verilən şikayətlərə o halda baxılır ki, əvvəllər ərizəçi özünün hüquqlarının pozulması ilə əlaqədar məhkəmə yaxud inzibati qaydada şikayət etmiş və şikayəti üzrə qəbul edilmiş qərarlarla razı deyildir. Müvəkkilin Qanunda təsbit olunmuş səlahiyyətləri çərçivəsində onun üç qrup hüquqları müəyyən edilmişdir. Belə ki, 20-ci maddədə Müvəkkilin şikayətlərin qəbul edilməsi, 23-cü maddədə şikayət üzrə yoxlamanın keçirilməsi ilə bağlı, 29-31-ci maddələrdə isə şikayətlərə baxılmasının nəticələrinə görə malik olduğu hüquqları konkret olaraq müəyyən edilmişdir.

Vətəndaşların hüquq və azadlıqlarının pozulmasına dair şikayətlərə baxılmasının yekunlarının ümumi nəticələrinə görə Müvəkkilə hüquq və azadlıqların təmin edilməsinə dair özünün ümumi xarakterli qeyd və təkliflərini dövlət və yerli özünüidarəetmə orqanlarına, vəzifəli şəxslərə göndərmək, müvafiq təkliflərlə müraciət etmək, vətəndaşların hüquq və azadlıqları kobud və ya kütləvi şəkildə pozularsa, Dövlət Dumasının növbəti iclasında məruzə ilə çıxış etmək, müvafiq faktların təhqiqatı üzrə parlament komissiyasının təşkili və parlament dinləmələrinin keçirilməsi haqqında təkliflə Dumaya müraciət etmək və onlarda iştirak etmək hüquqları verilir.

Rusiya Federasiyasında ombudsman təsisatından başqa Prezident yanında insan hüquqları üzrə Komissiya məşvərətçi və məsləhətçi orqan olmaqla, onun səlahiyyətləri "Rusiya Federasiyasının Prezidenti yanında insan hüquqları üzrə Komissiyanın fəaliyyətinin təmin edilməsi haqqında" və "Rusiya Federasiyasının Prezidenti yanında insan hüquqları üzrə komissiya haqqında Əsasnamənin təsdiqi haqqında" 01 noyabr 1993-cü il tarixli Fərmanları ilə müəyyən olunmuşdur. Bu aktlara görə, komissiya ölkədə insan və vətəndaş hüquq və azadlıqlarına təşkilatın gücləndirilməsi məqsədilə yaradılır. Komissiya Prezident tərəfindən insan və vətəndaş hüquq və azadlıqlarının təminatçısı funksiyasının yerinə yetirilməsinə köməklik edən orqandır. Onun əsas insan hüquqları ilə bağlı qanunvericilik və qanunun tətbiq edilməsi təcrübəsində real situasiyaları öyrənmək, müvafiq təkliflərlə çıxış etmək, Rusiya Federasiyasında insan-vətəndaş hüquq və azadlıqları məsələləri üzrə Prezident məruzələri hazırlamaq daxildir.

Rusiya Federasiyasının Prezidenti yanında insan hüquqları üzrə Komissiyanın funksiyalarına malik olan insan hüquqları üzrə Komissiyalar Federasiya subyektlərinin administrasiyası başçılarının nəzdində yaradılır. Hazırda Rusiyanın təxminən 70 bölməsində fəaliyyət göstərən belə komissiyalar, həm də vətəndaşların pozulmuş hüquqları ilə bağlı şikayətlərə baxır və onların müdafiəsi və bərpası üçün tədbirlər görürlər.

Rusiya Federasiyasının bu sahədəki təcrübəsinin təhlili göstərir ki, bizim fikrimizcə, Azərbaycan Respublikası Prezidenti yanında insan hüquqları üzrə Komissiyanın yaradılması bütövlükdə dövlət başçısının ölkədə insan hüquq və azadlıqlarının təminatçısı kimi öz funksiyalarının yerinə yetirilməsinə kömək edir.

Gürcüstanda Xalq Müdafiəçisi institutu 16 may 1996-cı il tarixli Qanunla yaradılmışdır.

Qanuna müvafiq olaraq Gürcüstanın Xalq Müdafiəçisi Gürcüstan ərazisində insanların hüquq və azadlıqlarına riayət edilməsinə nəzarəti həyata keçirir, onların pozulması faktlarını üzə çıxarır. Bu məqsədlə o, dövlət hakimiyyət orqanlarının, yerli özünüidarəetmənin, vəzifəli və hüquqi şəxslərin fəaliyyətinə nəzarəti həyata keçirir, onlar tərəfindən qəbul edilmiş aktları qiymətləndirir, tövsiyələr və təkliflər verir. Xalq Müdafiəçisinin fəaliyyətinin bir istiqamətini də insan hüquq və azadlıqları sahəsində maarifçilik fəaliyyəti təşkil edir.

Gürcüstanın Xalq Müdafiəçisi öz səlahiyyətlərinin həyata keçirilməsində müstəqildir, toxunulmazdır, onun fəaliyyəti üçün maneələrin yaradılması qanunla qadağan edilir. Xalq Müdafiəçisinin seçilməsi səlahiyyətlərinin dayandırılması qaydaları Qanunun ikinci fəslində müəyyən olunmuşdur. Belə ki, həmin vəzifəyə Gürcüstanın vətəndaşı parlament fraksiyası, parlamentin fraksiyalarından heç birinə daxil olmayan və sayı on nəfərdən az olmayan üzvlər qrupu tərəfindən irəli sürülür. Gürcüstanın Xalq müdafiəçisinin səlahiyyət müddəti, Rusiya Federasiyasının İnsan hüquqları üzrə Müvəkkili üçün olduğu kimi 5 il təşkil edir və bu ölkələrdə eyni şəxs bu vəzifəyə iki dəfə seçilə bilər. Onu da qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının müvafiq Qanunu ilə İnsan hüquqları üzrə Müvəkkil vəzifəsinə seçilənlərə daha geniş tələblər qoyulur. Məsələn, Gürcüstanın Xalq müdafiəçisi vəzifəsinə seçilən şəxsin yaşı Qanunda müəyyən edilməmişdir. Həm Azərbaycanda və həm də Rusiyada olduğu kimi, Gürcüstanın Xalq Müdafiəçisi də hər hansı siyasi partiyanın üzvü ola bilməz və ya siyasi fəaliyyətlə məşğul ola bilməz.

Xalq müdafiəçisinə ərizəni Gürcüstan vətəndaşları ilə yanaşı bu ölkədə olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, qeyri-hökumət təşkilatları verə bilər. Şikayətlər dövlət hakimiyyət və yerli özünüidarəetmə orqanlarının, dövlət və qeyri-dövlət təşkilatlarının, idarələrin, müəssisələrin, vəzifəli şəxslərin və hüquqi şəxslərin hərəkəti, yaxud hərəkətsizliyi nəticəsində pozulmuş hüquqlara dair verilir. Onun səlahiyyətləri əsasən aşağıdakılardan ibarətdir:

- qanunvericiliyin (insan hüquq və azadlıqları ilə bağlı) təkmilləşdirilməsinə dair təkliflər vermək;
- insan hüquqlarını pozmuş dövlət orqanlarına, vəzifəli şəxslərə və digər hüquqi şəxslərə pozulmuş insan hüququnun bərpa edilməsi ilə bağlı tövsiyələrvermək;
- insan hüquqlarını pozmuş şəxsin inzibati məsuliyyətə cəlb olunması üçün müvafiq orqanlara təkliflər vermək;
- pozulmuş insan hüquqlarını bərpa etmək üçün əlində olan vasitə və imkanlar kifayət etmədikdə, Gürcüstan prezidentinə müraciət etmək və parlament qarşısında məruzə etmək;
- xüsusi hallarda Konstitusiya ilə Gürcüstan Konstitusiyası Məhkəməsinə müraciət etmək;
- xüsusi hallarda insan hüquqları və azadlıqlarının pozulması hallarını araşdırmaq məqsədi ilə parlamentin müvəqqəti istintaq komissiyasının yaradılması təklifi ilə parlament qarşısında məsələ qaldırmaq və s.

Gürcüstan Xalq Müdafiəçisi, həmçinin, Gürcüstanın tərəfdar çıxdığı beynəlxalq normalarda əks olunmuş hüquq və azadlıqların pozulması faktlarını da nəzərdən keçirir. Bütövlükdə öz fəaliyyətini həyata keçirərkən, Xalq Müdafiəçisi sərbəst təhqiqat aparmaq səlahiyyətinə malikdir və onun fəaliyyətinə hər hansı maneə qanunla cəzalandırılır.

Latviya Respublikasında milli ombudsman təsisatı 1996-cı ildə qəbul olunmuş "İnsan hüquqları üzrə Dövlət bürosu haqqında" Qanun əsasında yaradılmışdır. İnsan hüquqları üzrə Dövlət bürosu Latviya Konstitusiyasında əks olunmuş insan və vətəndaş hüquq və azadlıqları, eləcə də Latviyanın tərəfdar çıxdığı Beynəlxalq sənədlərdə əks olunmuş insan hüquqlarına uyğun olaraq fəaliyyət göstərir.

Ümumiyyətlə, Baltikyanı dövlətlərin, o cümlədən, Latviyanın ombudsman təsisatı ilə bağlı qanunvericiliyi digər keçmiş sovet respublikalarının müvafiq qanunvericiliyindən fərqlənir. Belə ki, Latviyanın qeyd olunan Qanununa görə, İnsan hüquqları üzrə dövlət bürosuna Nazirlər Kabinetinin təqdimatı əsasında seym tərəfindən 4 il müddətinə təyin olunan direktor rəhbərlik edir. Direktorun vəzifədən azad edilməsi Seymin daxili qaydalarına əsasən həyata keçirilir. Büronun ştatı və strukturu qanunvericiliyə uyğun olaraq direktor tərəfindən təsdiq olunur.

Müasir dünyada milli ombudsman təsisatları ilə yanaşı, beynəlxalq statuslu ombudsman institutunun zəruriliyi razılıqla qəbul olunur. Məsələn, bu cür təsisatın yaradılması qərarı Avropa Şurası üzvü olan dövlətlərin başçılarının Strasburqda keçirilən zirvə toplantısında Avropa Şurasının İnsan hüquqları üzrə Müvəkkil postunun yaradılması ilə nəticələnmişdir. Həmin qərara müvafiq olaraq Avropa şurasının Parlament Assambleyasının 21 sentyabr 1999-cu il tarixli sessiyasında şuranın İnsan hüquqları üzrə Müvəkkili seçilmişdir. Həmin vəzifəyə ombudsman təsisatının tədqiqi sahəsində tanınmış şəxs olan və uzun müddət İspaniyanın ombudsmanı işləmiş Alvaro Nil-Robles seçilmişdir. Müvəkkilin səlahiyyət müddəti 6 ildir və o, təkrarən bu vəzifəyə seçilə bilməz.

Avropa Şurasının İnsan hüquqları üzrə Müvəkkilin üzərinə qeyri-məhkəmə işləri ilə yanaşı, əsasən də, insan hüquqlarına dair maarifləndirmə, iştirakçı dövlətlər tərəfindən Avropa konvensiyalarında və Avropa Şurasının digər sənədlərində nəzərdə tutulmuş müddəaların tam həcmdə yerinə yetirilməsinin təmin olunması ilə bağlı işləri həyata keçirmək, Avropa Şurasının bu sahədə fəaliyyət göstərən Avropa qurumlarının işinə yardım etmək, insan hüquq və azadlıqlarına əməl olunması ilə bağlı tövsiyə və təkliflərlə çıxış etmək və s. vəzifələr qoyulur. Müvəkkil fərdi şikayətlər qəbul etmir, lakin pozulmuş hüquqların milli çərçivədə həll olunması üçün əlavə nəzarət həyata keçirir.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 13 noyabr




## Sətəlcəm hər il beş yaşınadək olan 1,4 milyona yaxın uşağın həyatına son qoyur

Uşaq Sətəlcəminə qarşı Qlobal Koalisiyanın təşəbbüsü ilə hər il noyabrın 12-si Dünya Sətəlcəmə qarşı Mübarizə Günü kimi qeyd edilir. Həmin gün səhiyyə müəssisələri profilaktik tədbirlər və tibbi baxışlar keçirirlər. Bundan başqa, könüllülər insanlara sətəlcəm və onunla bağlı risklərdən danışır, məlumat vərəqələri, bukletlər paylayırlar.

AZƏRTAC xəbər verir ki, 2009-cu ildə Dünya Səhiyyə Təşkilatı UNICEF-lə birgə "Sətəlcəmin profilaktikası və xəstəliyə qarşı qlobal fəaliyyət planı"nı elan edib. Bu planın məqsədi uşaqların müdafiəsi üzrə kombinə edilmiş tədbirlərlə sətəlcəm ilə mübarizəni, xəstəliyin profilaktika və müalicəsini fəallaşdırmaqdır.

Sətəlcəm kəskin infeksiya xəstəliklərinə aid edilir və əsasən hava-damcı yolu ilə ötürülür. Müxtəlif növ viruslar, bakteriyalar və göbələklər sətəlcəmin törədiciləri ola bilər. Xəstəliyin simptomatikası onu doğuran səbəblərdən, pasiyentin yaşından və sağlamlıq vəziyyətindən asılıdır. Kəskin keçən bu xəstəlik aldadıcı formada inkişaf edir. Sətəlcəmin ağciyərdə ağırlaşması uşaqlar və immuniteti zəif olanlarda daha çox müşahidə edilir. Ağciyər sətəlcəmi qripəbənzər simptomlarla KRX (kəskin respirator xəstəlikləri), KRVİ (kəskin respirator virus infeksiyaları) fonunda inkişaf edir. "Özünümüalicə" zamanı temperaturu aşağı salan preparatlar qəbul etdikdə sətəlcəmin yaranma və ya ağırlaşma riski artır. Bu, infeksiyanın tənəffüs yolları ilə aşağı yayılmasına və ağciyərdə infeksiya mənbələrinin yaranmasına səbəb olur. Sətəlcəmin profilaktikası düzgün diaqnozun vaxtında qoyulmasıdır.

Bu xəstəlikdən, ilk növbədə, uşaqlar əziyyət çəkirlər. Dünyada həddi-buluğa çatmamışların ölüm faizinin əsas səbəbi sətəlcəmdir və o, hər il beş yaşınadək olan 1,4 milyona yaxın uşağın həyatına son qoyur. Bu, QİÇS, malyariya və qızılcadan ölənlərin birgə statistik göstəricisindən daha çoxdur. Xəstəliyin bütün dünyada yayğın olmasına baxmayaraq, ondan Cənubi Asiya və Afrika uşaqları daha çox əziyyət çəkirlər. Lakin kifayət qədər sadə tədbirlərlə, məsələn, immunizasiya və düzgün qidalanma ilə xəstəlikdən qorunmaq olar. Sətəlcəmə qarşı Mübarizə Gününün təsis edilməsinin məqsədi daha geniş ictimaiyyətin diqqətini bu xəstəliyə cəlb etmək və müalicə üsullarını təkmilləşdirməkdir.

## Azərbaycan komandası Dağıstanda keçirilən taekvondo yarışlarında birinci yeri tutub



Azərbaycan komandası Dağıstanda keçirilən taekvondo üzrə ümumrusiya açıq turnirində birinci yeri tutub. AZƏRTAC xəbər verir ki, turnirdə Rusiya regionları ilə yanaşı, Azərbaycan və Qazaxıstan komandalarını təmsil edən 300-ə yaxın idmançı iştirak edib. Ümumi komanda hesabında birinci yeri Azərbaycan taekvondoçuları tutublar. İkinci və üçüncü yerlərə müvafiq olaraq Mahaçqalanın "Qafqaz" və "Olimp" klubları layiq görülüblər.

## Gürcü ekspert: Azərbaycanda idman sürətlə inkişaf edir



Azərbaycanda idman sürətlə inkişaf edir. Tbilisidə keçirilən WK-1 versiyası üzrə peşəkarlar arasında ikinci beynəlxalq reytinq döyüşləri bir daha göstərdi ki, Azərbaycan idmançılarının peşəkarlığı yüksək səviyyədədir. Bu sözləri AZƏRTAC-a müsahibəsində Gürcüstanın Tayboksinq və Kikboksinq Federasiyasının prezidenti Qoça Cavaxia deyib. O, bildirib ki, beynəlxalq kikboksinq yarışlarında gürcülər hər zaman Azərbaycan, azərbaycanlılar isə Gürcüstan idmançılarına azarkeşlik ediblər. Gürcüstan və Azərbaycan təkcə yaxın qonşu deyil, həm də dost və qardaş ölkələrdir. Biz Azərbaycan idmançılarının çıxışlarını həmişə maraqla izləyirik və onların peşəkarlıq səviyyəsinin ciddi şəkildə yüksəldiyinin şahidi oluruq.

Q.Cavaxia deyib: "Gürcüstan və Azərbaycan artıq dünya səviyyəsində kikboksinq idman növünün inkişaf etdiyi ölkələr kimi tanınırlar. İki ölkə arasında kikboksinq idmanı sahəsində sıx əməkdaşlıq var. Bir-birimizə dəstək veririk və idmançılarımızın peşəkarlıq səviyyəsini artırırıq". Məlumat üçün qeyd edək ki, Tbilisidə keçirilən WK-1 versiyası üzrə peşəkarlar arasında ikinci beynəlxalq reytinq döyüşlərində Azərbaycan idmançıları 3 qızıl, 2 gümüş medal, həvəskarlar arasında keçirilən döyüşlərdə isə 3 qızıl medal qazanıblar.



## Şahmat idman növü üzrə Masallı rayon birinciliyi keçirilib

Dünən Yeni Azərbaycan Partiyasının yaranmasının 26 illiyi ilə əlaqədar YAP Masallı rayon təşkilatının təşkilatçılığı ilə Masallı rayon Uşaq-Gənclər İdman Şahmat məktəbində uşaqlar və yeniyetmələr arasında şahmat idman növü üzrə Masallı rayon birinciliyi keçirilmişdir. Yarışın açılış mərasimində Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev çıxış edərək idmançıları təbrik etmiş, Ulu Öndər Heydər Əliyevin siyasi kursunun gənc nəslə təbliğ edilməsindən, şahmat turnirinin gənclər arasında dostluq münasibətlərinin möhkəmlənməsinə, asudə vaxtlarının səmərəli təşkilinə xidmət etməsindən, gənclərin əqli inkişafında və intellektual səviyyəsinin yüksəlməsindəki əhəmiyyətli rolundan danışıb.

Seyfəddin Əliyev çıxışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə eləcə də, idman sahəsində aparılan uğurlu islahatlardan yarış iştirakçılarını məlumatlandırmışdır.

Turnirin yekununda qalib gəlmiş idmançılar YAP Masallı rayon təşkilatı tərəfindən diplom, medal və hədiyyələrlə mükafatlandırılmışdır.

***Rəfiqə***

## "Sumqayıt"ın baş məşqçisi Nazim Süleymanov istefa verib



Noyabrın 12-də "Sumqayıt" futbol klubunun baş məşqçisi Nazim Süleymanov istefa verib. AZƏRTAC klubun rəsmi saytına istinadla xəbər verir ki, 53 yaşlı mütəxəssis səhhəti ilə əlaqədar müqaviləsinə xitam verilməsi üçün Müşahidə Şurasına müraciət edib. N.Süleymanovun istefa ərizəsi Müşahidə Şurasının üzvləri tərəfindən qəbul edilib və sözləşməsi bu gündən ləğv olunub.

Qeyd edək ki, Nazim Süleymanov bu ilin iyununda "Sumqayıt"ın baş məşqçisi təyin olunub və onunla iki illik müqavilə bağlanılıb. Komanda Azərbaycan Premyer Liqasında 11 turdan sonra 11 xalla 6-cı sırada qərarlaşıb. Sumqayıt təmsilçisi sonuncu turda "Keşlə"yə 1:4 hesabı ilə uduzub.

### ELAN

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Riyaziyyat-informatika müəllimliyi üzrə III kurs tələbəsi Quluzadə Gülarə İntiqam qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

***

Xətai rayonu ASAN 2 tərəfindən Əsgərova Ceyran Əsgər qızına verilmiş şəxsiyyət vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

### BAŞSAĞLIĞI

"Səs" Media Qrupunun kollektivi adından Bəhruz Quliyev Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri, YAP İcra katibinin müavini Mübariz Qurbanlıya anası

**Süsən xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

***Allah rəhmət eləsin.***


*Baş redaktor:*

**Bəhruz Quliyev**

*Baş redaktorun müavinləri:*

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur

*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 5500**